3 noyabr 2023 №82 (2051)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyev Astanaya gedib

### Türk dövlətlərinin başçıları "Türk Əsri" çağırışı altında görüşürlər



Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu Zirvə görüşü noyabrın 3-də Astana şəhərində keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının yubiley sammitində iştirak etmək üçün noyabrın 2-də Qazaxıstan Respublikasına gedib.

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşılayıblar.

## Türk dünyası teatrlarının yolları Azərbaycanda birləşir

### I TÜRKSOY Beynəlxalq Teatr Festivalı keçirilir

Paytaxtımız daha bir sənət bayramına ev sahibliyi edir. 1–4 noyabr tarixlərində I Beynəlxalq TÜRKSOY Teatr Festivalı keçirilir.

Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkil etdiyi festivalın açılış mərasimi noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında gerçəkləşdi.

Festival iştirakçıları əvvəlcə I Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstələri düzərək xatirəsi ehtiramla anıblar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub, üzərinə tər çiçəklər qoyulub.









Festivalın açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli Türk dünyasının səhnə, sənət təmsilçilərini bir araya gətirən yeni layihə münasibətilə hər kəsi təbrik etdi, sənət şöləninin işinə uğurlar arzuladı.

Nazir dedi ki, festival Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, peşəkar milli teatrımızın yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə gerçəkləşir. TÜRKSOY-un xətti ilə ilk dəfə keçirilən festival qardaş ölkələr arasında teatr əlaqələrinin inkişafına, yaradıcılıq mübadiləsinin genişlənməsinə zəmin yaradacaq.

TÜRKSOY-un baş katibi Sultan Raev Türk dünyasında ilk peşəkar milli teatrın təməlinin 150 il öncə məhz Azərbaycanda qoyulduğunu diqqətə çatdırdı, bu baxımdan ilk festivalın Bakıda keçirilməsinin də təsadüfi olmadığını vurğuladı.

davamı səh. 3-də

## 9-cu Bakı Beynəlxalq Kitab Sərgisi keçiriləcək

### Kitabla görüş yeri yenə Bakı Ekspo Mərkəzidir

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 11-15 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan 9-cu Bakı Beynəlxalq Kitab Sərgisi (Baku International Book Fair – 2023) keçiriləcək.




Sərgidə iştirak üçün 11 xarici ölkədən 30-dan çox təşkilat, 109 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə qeydiyyatdan keçib. Təşkilat komitəsində 30-dan çox təşkilatın iştirak müraciəti də nəzərdən keçirilir.

Sərgidə həmçinin Azərbaycanın xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar, eləcə də əcnəbi müəlliflər iştirak edəcəklər.

Sərgi günlərində kitab təqdimatları, imza günləri, konfrans, qiraət və musiqi saatları, kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək.

Sərgi müddətində müxtəlif formatda 220-dən çox tədbirin təşkili nəzərdə tutulur.

Sərginin fəxri qonaq ölkəsi Rusiya Federasiyasıdır. Fəxri qonaq ölkənin kitab sənətinin və ədəbi-mədəni irsinin nümayişi məqsədilə Rusiya Federasiyası tərəfindən sərgi salonunda və Bakıdakı bir sıra mədəniyyət müəssisələrində müxtəlif formatda tədbirlər keçiriləcək. Rusiyanın tanınmış yazarları, tarixçiləri və elm adamları da sərgiyə qatılacaqlar.

Eyni zamanda Türkiyə tanınmış yazarları, elm və incəsənət xadimlərinin iştirak edəcəyi xüsusi tədbirlər proqramı ilə sərgidə təmsil olunacaq.

Xatırladaq ki, 2022-ci ildə keçirilən 8-ci Bakı Beynəlxalq Kitab Sərgisinin fəxri qonaq ölkəsi Türkiyə olmuşdu.

Ənənəvi olaraq bu dəfə də sərgi ziyarətçilərinin metronun "Elmlər Akademiyası", "28 May" və "Koroğlu" stansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə ödənişsiz gediş-gəlişi təmin ediləcək. Sərgiyə giriş də ödənişsizdir.

## "Uzun Həsən – Ağqoyunlu dövlətinin hökmdarı"

### Heydər Əliyev Mərkəzində açılan sərgi üç ay davam edəcək

Noyabrın 1-də Heydər Əliyev Mərkəzində ziyarətçiləri Azərbaycan tarixinin altı əsr öncəsinə vizual səyahətə aparacaq "Uzun Həsən – Ağqoyunlu dövlətinin hökmdarı" adlı sərgi açılıb. Sərgidə görkəmli sərkərdə Uzun Həsənin həyatı, onun yaratdığı Ağqoyunlu dövlətinə dair məlumatlarla tanış olmaq mümkündür.

Qeyd edək ki, bu il Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin (1423 – 1478) anadan olmasının 600-cü ildönümüdür.

Sərgi Heydər Əliyev Mərkəzi, Azərbaycanın Mədəniyyət Nazirliyi, Türkiyənin Milli Müdafiə, Mədəniyyət və Turizm nazirlikləri, Türkiyənin Azərbaycandakı Səfirliyi və Yunus Əmrə İnstitutunun birgə layihəsi olaraq ərsəyə gəlib.

Mərkəzin foyesində ziyarətçiləri Xalq artisti Munis Şərifovun bədii rəhbərliyi ilə Qədim musiqi alətləri ansamblı salamlayıb. Əməkdar artist Nailə Məmmədzadənin bədii rəhbərliyi ilə "Mirvari" rəqs qrupunun ifasında "Qılınclar ilə rəqs" təqdim edilib. "Helikon-opera" Moskva Musiqili Teatrının solisti Elnarə Məmmədovanın ifasında "Sarı gəlin" xalq mahnısı səslənib.

Heydər Əliyev Mərkəzinin Tədbirlərin və sərgilərin təşkili departamentinin direktoru Əminə Məlikova çıxış edərək sərgi haqqında məlumat verib. Bildirib ki, sərgidə Türkiyənin İstanbul şəhərindəki Hərb Muzeyindən nadir eksponatlar yer alıb. Onların sırasında Uzun



Həsənə aid olan zirehli geyim də var. Sərgidə həmçinin Azərbaycan Milli İncəsənət Muzeyi, Milli Tarix Muzeyi, Milli Xalça Muzeyi və Gəncə Tarix-Diyarşünaslıq Muzeyindən eksponatlar nümayiş etdirilir.

davamı səh. 8-də

## Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət not kitablarının təqdimatı

Noyabrın 2-də Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondu tərəfindən hazırlanan Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərindən ibarət not kitablarının təqdimatı olub.

Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva nəşrlərin Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Əbədi imzalar" layihəsi çərçivəsində işıq üzü gördüyünü bildirib.

Mədəniyyət nazirinin müavini Murad Hüseynov qeyd edib ki, Heydər Əliyev Fondu




tərəfindən həyata keçirilən layihələr Azərbaycan musiqisinin dünyada tanınmasına böyük töhfədir. O, "Əbədi imzalar" layihəsi üzərində bir neçə müddətdir iş getdiyini deyib, layihənin əhəmiyyətini vurğulayıb.

Bəstəkarlar İttifaqının sədri Xalq artisti Firəngiz Əlizadə, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli, Xalq artisti, dirijor Yalçın Adıgözəlov, Əməkdar artist, bəstəkar Vüqar Camalzadə layihədə zəhməti olan hər kəsə təşəkkürlərini bildiriblər.

Qeyd edilib ki, layihə çərçivəsində Asəf Zeynallı, Cövdət Hacıyev, Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Vasif Adıgözəlovun simfonik, kamera-instrumental, vokal, fortepiano əsərləri, eləcə də müxtəlif alətlər üçün solo və xor partiyaları çap olunub.

Tədbirdə not kitablarında yer alan əsərlərdən nümunələr ifa edilib.

## "Arşın mal alan" özbək dilində səhnəyə qoyulub

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin dünyaca məşhur "Arşın mal alan" operettası növbəti dəfə özbək dilində səhnəyə çıxıb. Bu dəfə operetta Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəstəyi ilə Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun musiqili teatr aktyorluğu ixtisası üzrə təhsil alan 4-cü kurs tələbələrinin diplom tamaşası kimi səhnələşdirilib.

Musiqili komediyaya kurs rəhbəri, dosent Şerzod Məhəmmədiyev quruluş verib. Tamaşanı institutun nəzdində fəaliyyət göstərən orkestr müşayiət edib.

Tamaşadan sonra çıxış edən institutun rektoru Eldor Şermanov Azərbaycan bəstəkarının şöhrəti dünyanı gəzən əsəri haqqında danışıb, "Arşın mal alan"ın uzun illədir Özbəkistanda da sevildiyini və hər zaman rəğbətlə qarşılandığını vurğulayıb.



## Gülüşə bürünən ciddi sənət...

3 noyabr unudulmaz teatr və kino aktyoru, Xalq artisti Əliağa Ağayevin (1913-1983) anım günüdür. Bu il eyni zamanda görkəmli sənətkarın anadan olmasının 110, vəfatının 40-cı ildönümüdür.



Sənətkar Dövlət Gənc Tamaşaçılar və Akademik Milli Dram teatrlarında çalışıb, özünəməxsus üslubda yaratdığı koloritli, xüsusilə komik obrazlarla tamaşaçıların yaddaşında silinməz iz qoyub.

Kinoda da bənzərsiz sənətkarlıq nümayiş etdirən aktyor "Görüş", "O olmasın, bu olsun", "Sehrli xalat", "Əhməd haradadır?", "Qanun naminə", "Evlənmək istəyirəm" və digər filmlərdə, eləcə də televiziya tamaşalarında bir-birindən maraqlı rollarla sənət salnaməmizə adını əbədi yazdırıb.

Xalq artistinin 100 illik yubileyi 2013-cü ildə dövlət səviyyəsində qeyd olunub.

"Yeni adlar"ın növbəti musiqi axşamı

səh. 5




Azərbaycan filmi ilk dəfə "Qoyya" mükafatı uğrunda yarışacaq

səh. 2

№82 (2051)
3 noyabr 2023
www.medeniyyet.az

# AzTV-dəki orkestrlər və xor Mədəniyyət Nazirliyinin tabeliyinə verilib

Nazirlər Kabineti "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin tabeliyindəki Niyazi adına Dövlət Simfonik Orkestri, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri və Cahangir Cahangirov adına Xorun Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi barədə qərar qəbul edib.



Baş nazir Əli Əsədovun imzaladığı 31 oktyabr 2023-cü il tarixli qərara əsasən, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Səsyazma Evində fəaliyyət göstərən Niyazi adına Dövlət Simfonik Orkestri ştat vahidləri ilə birlikdə Mədəniyyət Nazirliyinin tabeliyindəki Heydər Əliyev Sarayına, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri və Cahangir Cahangirov adına Xor ştat vahidləri ilə birlikdə Mədəniyyət Nazirliyinin tabeliyindəki Beynəlxalq Muğam Mərkəzinə verilib.

# Rusiya nazirlərin üçtərəfli görüşünü təşkil etməyə hazırdır

Yaxın vaxtlarda Moskvada Rusiya Federasiyası, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etməyə hazırıq.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bunu noyabrın 2-də keçirdiyi brifinqdə deyib.

O qeyd edib ki, Moskva Bakı ilə İrəvan arasında gərginliyin aradan qaldırılmasına kömək edəcək hər cür təması dəstəkləyir.

"Biz öz tərəfimizdən çıxış edərək bildiririk ki, ikitərəfli münasibətlərin normallaşdırılmasının yol xəritəsi 2020-2022-ci illər dövründə əldə olunan üçtərəfli razılaşmalar kompleksidir. Buraya iki ölkə arasında sülh sazişinin imzalanması, Cənubi Qafqazda iqtisadi, nəqliyyat əlaqələrinin açılması, sərhədlərin delimitasiyası, vətəndaş cəmiyyəti səviyyəsində dialoq və digər məsələlər daxildir", – deyə RF XİN-in rəsmi nümayəndəsi əlavə edib.

# Ölkəmiz Dünya Səyahət və Turizm Şurasının rəsmi tərəfdaşı seçilib

Azərbaycan Dünya Səyahət və Turizm Şurasının rəsmi destinasiya tərəfdaşı seçilib. Bu haqda qərar Dünya Səyahət və Turizm Şurasının noyabrın 1-də Ruandanın Kiqali şəhərində keçirilən "Dayanıqlı gələcəyə körpülərin qurulması" mövzusunda Qlobal Sammitdə qəbul edilib.




Noyabrın 3-dək davam edəcək sammitdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev də iştirak edir. O, tədbir çərçivəsində Dünya Səyahət və Turizm Şurasının prezidenti və baş icraçı direktoru xanım Culiya Simpsonla görüşüb. Yeni turizm destinasiyası kimi ölkəmizin tanıdılması, turizmin inkişaf etdirilməsi perspektivləri müzakirə olunub.

Eləcə də tədbir zamanı bir sıra ölkələrin turizm nazirləri və turizm üzrə səlahiyyətli şəxsləri ilə görüşlər keçirilib, cari turizm tendensiyaları üzrə fikir mübadiləsi aparılıb.

Azərbaycan tərəfdaş ölkə olmaqla, həmçinin Dünya Səyahət və Turizm Şurasının hotellər üçün nəzərdə tutulan 12 əsas fəaliyyət istiqamətini özündə birləşdirən "Dayanıqlı Əsaslar" üzrə proqramına da qoşulub.

1990-cı ildə yaradılan Dünya Səyahət və Turizm Şurası turizm üzrə dövlət və özəl sektor təmsilçilərini bir araya toplayan, tərəfdaşlığı təmin edən əsas platformalardan biri hesab olunur.

# Turan elləri bu dəfə teatr dilində danışır

Xəbər verdiyimiz kimi, Azərbaycan Mədəniyyət Nazirliyi və TÜRKSOY-un təşkilatçılığı ilə 1–4 noyabr tarixlərində ölkəmizdə I TÜRKSOY Beynəlxalq Teatr Festivalı keçirilir. Festival Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstandan teatrları bir araya gətirib.

Noyabrın 2-də festivalın müsabiqə proqramında Türkiyə və Özbəkistan teatrlarının tamaşalarını izlədik.



İlk olaraq Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında İstanbul Dövlət Teatrının "Bir nəfəs Dədə Qorqud" tamaşası nümayiş olundu.

"Kitabi-Dədə Qorqud" dastanı əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Gökçe Kurt Elitez, dekor və geyim rəssamı Dilək Kaplan, musiqi tərtibatçıları Fuad Yıldız və Bəhri Çakır, xoreoqrafı Alpaslan Karadumandır.

Aktyorların canlı olaraq bir neçə alətdə ifası, oyunu və xoreoqrafiyanı kompleks təqdim edən tamaşa bizi uzaq türk keçmişinə apardı, "Dədə Qorqud" dastanında boy verən qəhrəmanları ilə sənət dilində ecazkar bir təmasa səslədi.

Tamaşanın leytmotivi budur: qəlb dili ilə dinlədikdə bütün canlıların səsini, düzənliklərin pıçıltısını, ağacların və qayaların sirlərini, quşların nəğmələrini eşidə bilərsən. Belə olduqda ən kiçik təfərrüat üzə çıxar, səhərlər və gecələr səninlə öz əhvalatlarını bölüşər. Havanın, torpağın, dənizin, dağların, qayaların, bütün insanların dilini anlamaq üçün dünyanın ürək döyüntülərini diqqətlə dinləmək lazımdır. Səhnə işində Dədə Qorqudun nəfəsi ilə keçmişdən indiyə kimi yaşanmış hadisələrə şahid olur və qədim türk müdrikliyinin canlılığını hələ də sürdürdüyünə və bugünkü dünyamızla səsləşdiyinə əmin oluruq.

Dörd nəfərin yer aldığı birhissəli interaktiv səhnə əsəri ifaçı ilə ifa olunan arasında nizamlı və təbii bir rabitə yaratdı. Hadisədən hadisəyə keçid, epik teatr üslubunun sadə təsvirə inteqrasiyası aydın və yaddaqalan alınmışdı.

***

Özbəkistanın Səmərqənd Musiqili Dram Teatrının Əlişir Nəvainin eyniadlı poeması əsasında hazırladığı "Leyli və Məcnun" tamaşası Azərbaycan Dövlət



Akademik Musiqili Teatrının səhnəsində nümayiş olundu.

Tamaşanın quruluşçu rejissoru Əsgər Xolmuminov, quruluşçu rəssamı Mirjalak Xolikov, bəstəkarı Yapbergen Notegenov, rejissoru Şuxrat Sanaqulov, geyim üzrə rəssamı Maxliyo Xolikova, baletmeysteri Madina Xanerqaşevadır.

Özbək qonaqlar tamaşada musiqi ilə xoreoqrafiyanın sintezində iki gəncin saf sevgisini xor görən və onların vüsala yetməməsi üçün var gücü ilə çalışan ərəb çölü sakinlərinin ümumiləşmiş obrazını dolğunluqla verməyə çalışdılar.

Qeyd edək ki, böyük Azərbaycan şairi Nizami Gəncəvi 1188-ci ildə bu qədim ərəb əfsanəsini nəzmə çəkərək ədəbiyyatın gündəminə gətirib. Dahi özbək şairi Əlişir Nəvai Nizamidən təsirlənərək 296 il sonra öz "Leyli və Məcnun"unu qələmə alıb.

Geyim və səhnə tərtibatına görə sadə, xoreoqrafik elementlər, daha doğrusu, mətndən daha çox hərəkət, oyun təsviri ilə həmahəng tamaşa maraqla qarşılandı.

***

Noyabrın 3-də festivalın daha iki tamaşası göstəriləcək. Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı "Günəşə toxunan uşaq" (müəllif Sultan Raev) tamaşasını (Gənc Tamaşaçılar Teatrının səhnəsində), Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı isə "Qorqud əfsanəsi" tamaşasını (Milli Dram Teatrının səhnəsində) nümayiş etdirəcək.

I TÜRKSOY Beynəlxalq Teatr Festivalı noyabrın 4-də başa çatacaq.

**H.Rüstəmova**

# Filmimiz ilk dəfə "Qoyya" mükafatı uğrunda yarışacaq

Rejissor İlqar Nəcəfin "Suğra və oğulları" bədii filmi "Ən yaxşı Avropa filmi" nominasiyasında nüfuzlu "Qoyya" mükafatı uğrunda müsabiqəyə qatılıb. Bu, Azərbaycan kinosu tarixində bir ilkdir. Filmi müsabiqəyə Azərbaycan Kinematoqrafçılar İttifaqı təqdim edib.

Dünya premyerası 2021-ci ildə Busan Beynəlxalq Film Festivalında (Cənubi Koreya) baş tutan "Suğra və oğulları" filmi Bakı Media Mərkəzi, "Butafilm", "Arizona Productions" (Fransa) və "Salarfilm"in (Almaniya) birgə istehsalıdır. Ssenari müəllifləri İlqar Nəcəf, Asif Rüstəmov və Roelof Jan Minnebo (Niderland), quruluşçu operator Ayhan Salar (Almaniya), səs rejissoru Mixael Menzkedir (Almaniya).

İkinci Dünya müharibəsi dövründə Azərbaycanda, ucqar kənddə yaşayan insanların taleyindən bəhs olunan filmdə Günəş Mehdizadə, İlqar Cahangir, Rasim Cəfər, Aydan Həsənzadə və başqaları çəkilib.



Qeyd edək ki, İspaniya Kino Sənəti və Elmləri Akademiyası tərəfindən təsis olunan "Qoyya" mükafatı "Oskar" (ABŞ), BAFTA (Böyük Britaniya), "Sezar"la (Fransa) yanaşı, kino akademiyaları tərəfindən təqdim edilən ən nüfuzlu mükafatlardandır. Alexandra Amnebar, Pedro Almodovar, Karlos Saura kimi kinorejissorlar bu mükafatın qalibi olublar.

# "Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və dünyaya"

AMEA Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında "Şuşa şəhəri: Azərbaycan mədəniyyəti Qafqaza və dünyaya" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdə Qafqazşünaslıq İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı "Heydər Əliyev və Şuşa" adlı məruzə ilə çıxış edib. Məruzədə 1970-ci illərdə Heydər Əliyevin Şuşa şəhərindəki tarix və mədəniyyət abidələrinin qorunmasına, bərpasına qayğısı, qəbul edilən qərarlar təhlil olunub.

Konfransa AMEA-nın bir sıra institutları, Azərbaycan, Türkiyə, Rusiya, İtaliya, Kanada və Ukraynadan ümumilikdə 80-dən çox alim və tədqiqatçının məruzələri təqdim olunub. Şuşanın tarixi keçmişi, şəhərin mədəniyyət paytaxtına çevrilməsi istiqamətində görülən işlər, xarici tədqiqatçılar Şuşa şəhəri haqqında, Qafqazın mədəniyyət tarixində Şuşanın yeri və digər məsələlərə dair məruzələr 6 bölmə iclasında dinlənilib.

# BBMM Kərkük Mədəniyyət Dərnəyi ilə əməkdaşlıq edəcək

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Kərkük Mədəniyyət Dərnəyi arasında əməkdaşlığa dair memorandum imzalanıb.

BBMM-in mətbuat xidmətindən bildiriblər ki, imzalanma mərasimində çıxış edən icraçı direktor Rəvan Həsənov İraq türkmənləri ilə azərbaycanlıları eyni mədəniyyət və tarixi köklərin bağladığını bildirib.

"Mərkəz olaraq qarşımızda duran əsas məqsədlərdən biri mədəni irsi araşdırmaq, tarixi yaddaşı bərpa etməkdən ibarətdir. Bu istiqamətdə fəaliyyətimizi genişləndirmək niyyətindəyik", – deyə o qeyd edib.

Kərkük Mədəniyyət Dərnəyinin rəhbəri Şəmsəddin Küzəçi "İraq türkmənləri və Türk dünyası: tarixi yaddaşın bərpası" mövzusunda konfransın təşkilinə görə BBMM rəhbərinə təşəkkürünü bildirib. BBMM ilə Kərkük Mədəniyyət Dərnəyi arasında memorandumun başlanılmış işin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, memorandumun məqsədi türk xalqlarının mədəni birliyinin möhkəmləndirilməsinə töhfə verilməsi, o cümlədən İraq ərazisində tarixən məskunlaşmış və hazırda da orada yaşayan türkmənlərlə mədəni əlaqələrinin genişləndirilməsi, ortaq tarixi ənənələrin, etnik mədəni-mənəvi dəyərlərin qarşılıqlı şəkildə öyrənilməsi və təbliğidir.

# Xocalı soyqırımında iştirakla bağlı etiraf

## Madat Babayan öldürülən azərbaycanlıların kütləvi basdırıldığı yerləri də göstərib




Qanunsuz erməni silahlı birləşmələrinin Azərbaycan Respublikasının ərazilərində törətdikləri terrorçuluq və digər ağır cinayətlərlə bağlı araşdırmalar davam etdirilir. Bu barədə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) məlumat yayıb.

Məlumatda bildirilir ki, 2023-cü ilin sentyabr ayında keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində qanunsuz silahlı birləşmələrə daxil olmaqla, mütəşəkkil dəstə halında milli ədavət və düşmənçilik niyyəti ilə terrorçuluq əməlləri törətməkdə şübhəli bilinən Babayan Madat Arakeli Kəlbəcər rayonunun Qozlukörpü kəndi ərazisində tərk-silah edilərək saxlanılıb.

İstintaq zamanı təqsirləndirilən şəxs Madat Babayan ifadəsində digər xüsusatlarla yanaşı həmçinin bildirib ki, 1992-ci ilin fevral ayında Xocalı faciəsinin törədilməsində iştirakçı olub. O qeyd edib ki, 24 fevral 1992-ci il tarixində "Xolostoy" ləqəbli Ermənistan silahlı qüvvələrinin polkovnik-leytenantı Arkadi Şirinyanın rəhbərliyi altında digər erməni silahlıları ilə Xocalı rayonunun Təzəbinə kəndində birləşərək, azərbaycanlı əhalini məhv etmək məqsədilə qabaqcadan qurulmuş plana uyğun olaraq, 25 fevral 1992-ci il tarixində gecə saat 23:00 radələrində Xankəndi şəhərindən Xocalı şəhəri istiqamətində edilən hücum zamanı xilas olmaq üçün Əsgəran rayonuna tərəf qaçmaq istəyən, əksəriyyəti qadın, uşaq və qocalar olmuş 150 nəfərdən çox əliyalın şəxsdən ibarət mülki əhalini həmin ərazidə pusquya salaraq avtomat silahlarından atəş açmaqla qətlə yetirmişlər.

Eyni zamanda Madat Babayan 26 fevral 1992-ci il tarixində azərbaycanlıların meyitlərini yığdıqları zaman Vamik Petrosyan, Şirin Şirinyan və digər dəstə üzvləri tərəfindən meyitlər üzərində təhqiredici hərəkətlərin törədilməsini, bundan başqa 100-dən çox mülki Xocalı sakininin əsir düşdüyünü müşahidə edib. O, həmçinin 1992-ci il fevralın 26-da Xocalıda olan erməni silahlıları ilə birlikdə şəhərdə azərbaycanlılara məxsus olan əmlakların talan edilməsi və törədilən kütləvi insan qırğını faktlarının gizlədilməsini təmin etmək üçün Xankəndi istiqamətində Xocalı-Ballıca-Xankəndi yolayrıcında silahlı post qurduqlarını, üç gün sonra isə bu postda xidmət apardığı vaxt Xocalıda qətlə yetirilən azərbaycanlıların meyitlərinin üç yük avtomobilində gətirildiyini, həmin postdan təxminən 400 metr məsafədə Qarqar çayının sol sahilində qazılan əraziyə tökülərək kütləvi basdırıldığını qeyd edib.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti həyata keçirilərkən Madat Babayan mülki əhaliyə qarşı cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərərək bu barədə ətraflı məlumat təqdim edib. Bundan əlavə, o, əsir götürülmüş və qanunsuz olaraq Qozlukörpü kənd məktəbində saxlanılmış, amansız rəftar və işgəncələr nəticəsində ölmüş azərbaycanlıların meyitlərini Qozlukörpü kəndində şəxsən dəfn etdiyi yerləri də göstərib. Hazırda qeyd olunan və digər əlaqəli cinayətlərlə bağlı kompleks araşdırmalar aparılır.

# Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir

## XİN-dən ABŞ Dövlət Departamentinə cavab

Təəssüflər olsun ki, ABŞ onilliklər ərzində vasitəçi olsa da, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsini, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizlənmənin qurbanı olmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərilməsi məsələsini heç zaman bu qədər qətiyyətlə təşviq etməyib.

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin ABŞ Dövlət Departamenti rəsmilərinin Azərbaycan əleyhinə bəyanatlarına cavabında deyilir.

Qeyd olunur ki, ABŞ beynəlxalq öhdəliklərə uyğun olaraq, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi çərçivəsində Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə, Ermənistan silahlı qüvvələrinin çıxarılmasına, eləcə də Qarabağdakı erməni qondarma rejiminin ləğvinə heç vaxt çağırış etməyib. Əksinə, Ermənistanı yanlış istiqamətə yönəldib, separatçıların qeyri-qanuni fəaliyyətinin müdafiəsi məqsədilə ABŞ-yə səfər etmələri üçün imkanlar yaratmaqla və maliyyə vəsaiti ayırmaqla Azərbaycan ərazilərində qanunsuz rejimin saxlanılmasına dəstək verib.

Diqqətə çatdırılır ki, məhz ABŞ-nin də iştirak etdiyi vasitəçilik cəhdlərinin nəticə verməməsi və Ermənistanın işğalçı siyasətinin qarşısının alınmaması Azərbaycanı öz torpaqlarını hərbi yolla azad etməyə sövq edib.



"Sülhün və sabitliyin təmin edilməsi qarşısında əsas maneə olan təcavüzkar dövlət Ermənistanı regionumuzda cəsarətləndirmək siyasətinə son qoyulması vacibdir. Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir. Azərbaycana qarşı hər hansı qeyri-dost hərəkət müsbət nəticə verməyəcək və bu cür hərəkətlərə adekvat cavab veriləcək", – deyə XİN rəsmisi bildirib.

Qeyd edək ki, ABŞ dövlət katibi Antoni Blinken oktyabrın 31-də Senatın Təxsisatlar Komitəsində çıxışı zamanı, digər məsələlərlə yanaşı, münaqişə nəticəsində Ermənistanda yaranmış ağır humanitar ehtiyacların həlli üçün əlavə maliyyəyə ehtiyac olduğunu bildirib. 2 noyabr tarixində isə Dövlət Departamenti "Amerikanın səsi" xəbər agentliyinin sualına cavab olaraq vurğulayıb ki, ABŞ Ermənistanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir, bu suverenliyin və ərazi bütövlüyünün istənilən şəkildə pozulması ciddi nəticələrə gətirib çıxaracaq.

# Türk dünyası teatrlarının yolları Azərbaycanda birləşir

## I TÜRKSOY Beynəlxalq Teatr Festivalı keçirilir

*əvvəli səh. 1-də*

Baş katib Azərbaycanda teatr sənətinin zəngin inkişaf yolu keçdiyini bildirdi, hazırda bu sahənin inkişafına öz töhfəsini verən sənət adamlarını təbrik etdi, yeni yaradıcılıq uğurları arzuladı.

Sultan Raev çıxışının sonunda layihənin Türk dünyasında yeni yaradıcılıq axtarışlarına təkan verəcəyinə əminliyini bildirdi.

***

Çıxışlardan sonra festivalın müsabiqə proqramına daxil olan ilk səhnə əsəri – Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının "Qarabağnamə" tamaşası təqdim edildi.

Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur.




tərtibatçısı Həmid Kazımzadədir. Tamaşada Xalq artistləri Vasif Adıgözəlov və Polad Bülbüloğlunun musiqilərindən istifadə olunub.

XVIII əsrdə Qarabağ xanlığının mərkəzi Şuşada baş vermiş tarixi hadisələrdən bəhs edən tamaşa izləyicilər tərəfindən maraqla qarşılandı.

***

Xatırladaq ki, oktyabrın 31-də festivalın müsabiqədənkənar iki tamaşası göstərilib. Azərbaycan Dövlət Pantomima Teatrı "Manqurt" tamaşasını (Ç.Aytmatov) Akademik Rus Dram Teatrının





Rolları Xalq artistləri Kazım Abdullayev, Firəngiz Mütəllimova, Rafiq Əzimov, Hacı İsmayılov, Əli Nurzadə, Əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Ağaverdiyeva, Kazım Həsənquliyev, Əminə Babayeva, Elxan Quliyev, Elşən Cəbrayılov, Elnar Qarayev, aktyorlar İlyas Əhmədov, Ramin Şıxəliyev, Ləman İmanova, Cavidan Novruz, Firuzə Balayeva, Nəzrin Abdullayeva, Məhsəti Tahirzadə, Corc Qafarov və Tural İbrahimov ifa edirlər.

Səhnə əsərinin quruluşçu rəssamı İsmayıl Məmmədov, geyim rəssamı Aygün Mahmudova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi səhnəsində təqdim edib. Naxçıvan Dövlət Milli Dram Teatrının "Edama məhkumun son günü" tamaşası (V.Hüqo) isə Akademik Musiqili Teatrda nümayiş olunub.

**Həmidə**

# Milli Kitabxana Asiya və Okeaniya ölkələri kitabxanalarının iclasında təmsil olunub

## "Topla və təqdim et: milli kitabxanalar və onların kolleksiyaları"

1-2 noyabr tarixlərində Qətərdə Asiya və Okeaniya Milli Kitabxanaları Direktorları Konfransının (The Conference of Directors of National Libraries in Asia and Oceania – CDNLAO) 28-ci iclası keçirilib.

Azərbaycan Milli Kitabxanasının elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova Qətər Milli Kitabxanasının dəvəti ilə toplantıda iştirak edib.

"Topla və təqdim et: milli kitabxanalar və onların kolleksiyaları" mövzusunda iclası Qətər Milli Kitabxanasının icraçı direktoru Tan Huism açıb. Sonra IFLA (Kitabxana Assosiasiyalarının Beynəlxalq Federasiyası) prezidenti Vicki Mcdonaldın çıxışı dinlənilib. IFLA-nın Asiya və Okeaniya üzrə Regional Ofisinin regional meneceri Mişel Launun təqdimatı da iştirakçıların nəzərinə çatdırılıb.

İclasda "İcmalarımızı təmsil edən məzmunun toplanması (fiziki və rəqəmsal)", "Kolleksiyaların mühafizəsi və əlçatan olması", "Ölkənin kolleksiyası ilə icmaları aktivləşdirmək və cəlb etmək" mövzuları müzakirə edilib.

Ədibə İsmayılova "Milli kitabxanalar milli-mənəvi dəyərlərin qoruyucusudur" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda milli-mənəvi dəyərlərin qorunmasında kitabxanaların rolundan, Azərbaycan Milli Kitabxanasının tarixi və zəngin kolleksiyalarından, Azərbaycanda kitab mədəniyyətinin ilk nümunələri, 1875-1930-cu illəri əhatə edən dövri mətbuat nəşrləri, unikal "Səs yazıları fondu", eləcə də Azərbaycan bəstəkarlarının əlyazmalarının "Qızıl fondu", onların qorunması, əlçatanlığının təmin edilməsi üçün həyata keçirilən layihələrdən, habelə "Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsindən bəhs edilib. Təqdimat maraqla qarşılanıb.

Direktor müavini Qətər Milli Kitabxanasının fonduna Milli Kitabxana tərəfindən hazır-




lanmış "Nizami-880" adlı disk-albomu, dahi Azərbaycan bəstəkarı Qara Qarayevin diskini (instrumental əsərləri) və "Salam, Azərbaycan!" adlı kitabı hədiyyə edib.

Qeyd edək ki, Asiya və Okeaniya Milli Kitabxanaları Direktorlarının Konfransı (CDNLAO) hər il ümumi maraq doğuran kitabxana məsələlərini müzakirə etmək, resurs və məlumat mübadiləsini təşviq etmək üçün toplanır. Bu platformada ilk görüş 1979-cu ildə keçirilib.

# Üç, üç, bir də yeddi...

## Festival festivala tən gərək



Türk dünyası teatrlarının Azərbaycanda festivala toplandığı bu günlərdə Bakıda yerli miqyaslı daha bir teatr festivalı keçirilir. Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Bakı Uşaq və Gənclər Teatrının birgə layihəsi olan "Bir teatr – bir festival" ənənəsinin davamı olaraq "3+3=7" festivalı noyabrın 1-də işə başladı.

44 günlük Vətən müharibəsində şanlı Zəfərə həsr olunmuş festivalın açılış mərasimində çıxış edən layihənin rəhbəri Əməkdar artist İntiqam Soltan bu teatr bayramının adındakı rəqəmlərin düzülüşünə diqqət yetirdi. Birinci 3 – II Qarabağ müharibəsindəki Qələbəmizin yaşı, ikinci 3 – festivalın davametmə müddəti, nəhayət, 7 – iştirakçıların sayıdır.

Festivalda nümayiş olunan tamaşalara keçməzdən əvvəl festival barədə gərəkli məlumatları oxucuların diqqətinə çatdırmaq istərdik. Tamaşalar Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) salonunda, Dövlət Akademik Milli Dram Teatrı, Akademik Musiqili Teatr və Dövlət Gənc Tamaşaçılar Teatrında göstərilir. Festivalın informasiya dəstəkçiləri "Mədəniyyət TV" kanalı, teatro.az saytı və "Mədəniyyət" qəzetidir.

"3+3=7" festivalı ölkənin yeddi teatrını bir araya gətirib. Paytaxtın yuxarıda adları çəkilən üç teatrından savayı Azərbaycan Dövlət Kukla Teatrı, təşəbbüskar Bakı Uşaq və Gənclər Teatrı, eləcə də Mingəçevir Dövlət Dram Teatrı və Lənkəran Dövlət Dram Teatrı bu sənət bayramına qoşulub.

Festivalın ilk günü Gənc Tamaşaçılar Teatrının repertuarından "İnanıram" monotamaşası (Ülviyyə Heydərova) ilə başladı. Rejissor Elşad Rəhimzadənin quruluş və səhnə tərtibatı verdiyi tamaşada müharibə zamanı yeganə övladını itirən qadının çəkdiyi iztirablardan, onu həyata bağlayan dəyərlərdən söhbət açılır. Yeri gəlmişkən, ötən il hazırlanan tamaşa bu yaxınlarda Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən "ART - ORDO 2023" IX Beynəlxalq Teatr Festivalında nümayiş olunub və Zemfira Əbdülsəmədova Ana roluna görə mükafata layiq görülüb.

Festivalın birinci günü daha iki tamaşa ilə yadda qaldı.

ATXİ-nin böyük zalında əvvəlcə Bakı Uşaq və Gənclər Teatrı Könül Şahbazova-Qasımovanın müəllifi və rejissoru olduğu "Son nəfəsə qədər" tamaşasını təqdim etdi.

Xeyirlə Şərin mübarizəsi kimi təqdim olunan, pantomim və rəqs elementləri üzərində qurulmuş 12 dəqiqəlik tamaşa Qarabağ uğrunda 44 günlük savaşımızın ideyasını, Vətən uğrunda döyüşənlərin həmişə işğalçıları dəf edə biləcəyini göstərdi. Yalnız ağ və qara libaslı gənc aktyorlar gözəl plastika nümayiş etdirdilər və hərəkətlərində cəngi ruhlu musiqinin ritmindən geri qalmadılar.

Azərbaycan Dövlət Kukla Teatrı M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyası əsasında hazırlanmış (quruluşçu rejissor Aleksandr Maksimtsev, bərpaçı rejissor Elxan İsmayılov) "Müsyö Jordan" tamaşasını təqdim etdi. Hər kəsin əzbər bildiyi əsərin marionet kuklaların təfsirində yığcam və məzəli təqdimatı tamaşaçıların ovqatını savaş ruhundan qalibiyyət hissinin fərəhinə köklədi.

Festivalın ikinci günü Bakı Uşaq və Gənclər Teatrının daha bir səhnə işi – "Cənnətə bilet" (müəllif-rejissor İlhamə Əhmədova) və Akademik Milli Dram Teatrının "Küknarlara məktub" (müəllif Qoderzi Çoxeli, rejissor Nigar Güləhmədova) tamaşaları oynanıldı.



"3+3=7" festivalı noyabrın 3-də işini başa çatdırır. Son günün proqramına Akademik Musiqili Teatrın "Bir nəfəs qədər" (ideya müəllifi Əliqismət Lalayev, rejissor Samir Qulamov), Mingəçevir Dövlət Dram Teatrının "Adsız" (müəllif Aygün Həsənoğlu, rejissor Vüsal Mehrəliyev), Lənkəran Dövlət Dram Teatrının "Haqqın 44 günü" (müəllif-rejissor Anar Babalı), Bakı Uşaq və Gənclər Teatrının "Vətən" (rejissor İntiqam Soltan) tamaşaları daxildir.

**Gülcahan Mirməmməd**

# "İndiyədək belə əhatəli teatr platformamız yox idi"

Noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkil etdiyi I Beynəlxalq TÜRKSOY Teatr Festivalı ilə bağlı mətbuat konfransı keçirildi.

Mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov ilk dəfə reallaşan tədbirin ideya və məqsədlərindən söz açdı, festivalın işinə uğurlar arzuladı.



TÜRKSOY-un baş katibi Sultan Raev qeyd etdi ki, festival Türk dünyası teatr sənətçilərini bir araya gətirmək, qardaş ölkələrin teatrlarının inteqrasiyasına töhfə vermək məqsədi daşıyır. Bildirdi ki, bu günə qədər Türk dünyasında belə əhatəli teatr platforması yox idi. Festivala 6 ölkədən teatrlar və bu sahənin mütəxəssisləri qatılıb.

Festivalın münsiflər heyətinin rəhbəri sənətşünaslıq doktoru, TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının sədri professor İsrafil İsrafilov otuzillik fəaliyyəti dövründə təşkilatın ilk dəfə belə bir festival həyata keçirdiyini dedi: "Festivalda bir-birindən maraqlı səhnə əsərləri nümayiş olunacaq. Beynəlxalq münsiflər heyəti tərəfindən ən yaxşı tamaşaları dəyərləndirəcəyik. Ümid edirəm ki, bu cür festivalların təşkili teatrların inkişafına öz müsbət təsirini göstərəcək".

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı festivalın proqramında yer alan tamaşaların öz ölkələrində seçkin səhnə nümunələri olduğunu dedi.

Qeyd edək ki, festivalda TÜRKSOY-a üzv ölkələrdən – Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı, Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı və Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının kollektivləri iştirak edirlər.

Ölkəmiz festivala Azərbaycan Dövlət Akademik Milli Dram, Dövlət Musiqili, Dövlət Pantomima və Naxçıvan Dövlət Milli Dram teatrları ilə qatılıb. Akademik Milli Dram Teatrı festivalın müsabiqə proqramında iştirak edir, digər üç kollektiv isə tamaşalarını müsabiqədənkənar təqdim edirlər.

TÜRKSOY Teatr Festivalı türkdilli xalqların zəngin mədəni müxtəlifliyini nümayiş etdirmək, habelə qardaş ölkələr arasında mədəni mübadilənin dərinləşməsinə töhfə vermək baxımından əhəmiyyətli layihədir.

**H.Nizamiqızı**

# Mədəni irsin tədqiqi və konservasiyası

Moskva şəhərində Rusiyanın Bərpa üzrə Dövlət Elmi-Tədqiqat İnstitutu tərəfindən "Mədəni irsin tədqiqi və konservasiyası" mövzusunda növbəti beynəlxalq elmi-metodiki konfrans keçirilib.



Konfrans bərpa sahəsində bir çox monoqrafiyaların müəllifi, görkəmli rus alimi Yuri Qrenberqin xatirəsinə həsr olunub.

Azərbaycanı tədbirdə Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru Zərifə Məlikova təmsil edib. Mərkəzdən bildiriblər ki, konfransın açılışında Zərifə Məlikovanın "İlk bərpaçı-rəssam" mövzusunda məruzəsi dinlənilib.

# Erməni ifaçı Ələkbər Tağıyevin mahnısını oğurlayıb

## Əqli Mülkiyyət Agentliyi məsələni araşdırıb

Görkəmli Azərbaycan bəstəkarı Ələkbər Tağıyevin 1968-ci ildə Azərbaycan Radiosunun "qızıl fondu"na daxil edilən "Sənə qurban" mahnısının ermənilər tərəfindən "Garun" adı altında mənimsənilərək ifa edilməsi və Yutub-da yayılması faktı Əqli Mülkiyyət Agentliyində araşdırılıb.

Agentlikdən bildirilib ki, Ələkbər Tağıyevin şair Mikayıl Müşfiqin sözlərinə bəstələdiyi mahnı ilk dəfə Zeynəb Xanlarova tərəfindən 1968-ci ildə ifa edilib. "Sənə qurban" mahnısı 1978-ci ildə Əqli Mülkiyyət Agentliyində (agentlik həmin vaxt Ümumittifaq Müəllif Hüquqları Agentliyinin Azərbaycan Respublikası Şöbəsi adlanırdı) qeydiyyata alınıb.




Sonralar bu mahnı erməni müğənnilər Tiqran Asatryan, Spitakci Hayko, erməni əsilli İran-ABŞ pop ifaçısı Andranik Madadyan və başqaları tərəfindən erməni dilində "Garun" ("Bahar") adı ilə ifa edilib.

Bütün arxiv sənədləri "Sənə qurban" mahnısının Azərbaycan müəlliflərinə məxsus olduğunu göstərir. SSRİ Xalq artisti Z.Xanlarova xarici ölkələrdə, o cümlədən Ermənistan da daxil olmaqla keçmiş Sovet İttifaqının respublikalarında qastrol səfərlərində bu mahnını dəfələrlə ifa edib.

"Erməni əsilli ifaçı A.Madadyan isə Ələkbər Tağıyevin mahnısını mənimsəyərək sözlərini dəyişib və izi itirmək məqsədilə "Garun" adı ilə oxuyub. Yutub kanalında yerləşdirilmiş "Garun" adlı musiqi əsəri haqqında verilən məlumatda Ələkbər Tağıyevin adı göstərilməməklə müəllifin şəxsi hüquqları, Yutub kanalında kommersiya məqsədilə yerləşdirilməsi nöqteyi-nəzərdən isə Ələkbər Tağıyevin əmlak hüquqları pozulub", – deyə Əqli Mülkiyyət Agentliyindən bildirilib.

# “Zəfər” festivalı davam edir

Xəbər verdiyimiz kimi, 8 Noyabr – Zəfər Günü münasibətilə oktyabrın 22-dən noyabrın 8-dək Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Zəfər” musiqi və teatr festivalı keçirilir.



Festival paytaxtımızla yanaşı, Gəncə və Sumqayıt şəhərlərinin, İsmayıllı, Biləsuvar, Sabirabad, Xaçmaz rayonlarının bir sıra mədəniyyət ocaqlarında tarixi Qələbəmizə həsr olunmuş silsilə tədbirlərlə davam edir.

Festival çərçivəsində oktyabrın 31-də Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki Cəbrayıl rayon Çərəkən kənd klubunda (Biləsuvar rayonu 4 saylı məcburi köçkün qəsəbəsində fəaliyyət göstərir) Əməkdar artist müğənni Aybəniz Haşımova və onun rəhbərlik etdiyi “Sənət akademiyası”nın tələbələri konsert proqramı ilə çıxış ediblər.

Proqramda vətənpərvərlik ruhlu musiqi nömrələri səsləndirilib. Konsert tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

“Zəfər” festivalının daha bir musiqili tədbiri noyabrın 2-də Sabirabad rayonu Mədəniyyət Mərkəzində keçirilib. Azərbaycan Dövlət Mahnı Teatrı kollektivinin təqdim etdiyi konsertdə vətənpərvərlik ruhlu mahnılar səslənib.

# Şamaxıda “44 gün – tarixi Zəfər” kitabının təqdimatı keçirilib

Şamaxı rayon Mədəniyyət Mərkəzində Mədəniyyət Nazirliyinin tabeliyindəki “Respublika Xatirə Kitabı” redaksiyası tərəfindən çap edilən “44 gün – tarixi Zəfər” adlı üçcildliyin I və II cildinin təqdimatı keçirilib.



Tədbirdə rayonun icra başçısı Tahir Məmmədov, Dağlıq Şirvan RMİ-nin rəisi Səxavət Məmmədov, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri iştirak ediblər.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Rəfail Tağızadə açılış nitqi söyləyib. İcra başçısı Tahir Məmmədov, “Respublika Xatirə Kitabı” redaksiyasının baş redaktoru Nəzakət Məmmədova və başqa çıxış edənlər şəhidlərimizin adlarının əbədiləşdirilməsi istiqamətində görülən işlərdən danışıblar.

Qeyd edilib ki, nəşrin 2022-ci ildə işıq üzü görən birinci cildində 44 günlük Vətən müharibəsi ilə yanaşı, 2016-cı ilin Aprel döyüşləri və Tovuz döyüşləri (iyul 2020) zamanı həlak olanlar da əhatə olunub. I və II cildlərdə ümumilikdə 2000-ə yaxın şəhid haqqında bioqrafik məlumatlar toplanıb. Hazırda III cild üzərində iş aparılır.

Təqdimatda bildirilib ki, kitabda Dağlıq Şirvan RMİ-nin əhatə etdiyi Ağsu, İsmayıllı, Şamaxı və Qobustan rayonlarından Vətən müharibəsi şəhidləri barədə də məlumatlar yer alıb. Şamaxı rayonundan 43, Qobustan rayonu üzrə 26, Ağsu rayonu üzrə 30 nəfər, İsmayıllı rayonundan 27 nəfər Vətən müharibəsi şəhidi var.

Nəşrin ilk iki cildində adları qeyd olunan şəhidlərin ailə üzvlərinə kitablar təqdim edilib.

Çıxışlardan sonra redaksiya tərəfindən hazırlanan “Vətən daşı... və ya 44 günün dastanı” adlı layihə əsasında çəkilmiş 8 sənədli filmdən biri nümayiş olunub.

# Ağdaşda ilk kitabxananın yaranmasının 100 illiyi ilə bağlı tədbir

Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ağdaşda ilk kitabxananın yaranmasının 100 illiyi ilə əlaqədar tədbir təşkil olunub.



Tədbirdə Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Mərkəzi Aran Regional Təhsil İdarəsinin rəisi Elçin Kərimov, rayon İcra Hakimiyyəti və digər təşkilatların nümayəndələri iştirak ediblər.

Çıxış edənlər Ağdaşda və respublikamızda kitabxanaların yaranma tarixindən və inkişaf yolundan söz açıblar.

Kərim Tahirov Milli Kitabxananın nəşri olan bir neçə kitabı Ağdaş rayon Mərkəzi Kitabxanasına hədiyyə edib.

Bədii hissədə rayon Mədəniyyət Mərkəzi, Ağdaş şəhər Habil Əliyev adına 1 nömrəli Uşaq musiqi məktəbinin kollektivləri və məktəblilərin ifasında səhnəciklər, kompozisiyalar və musiqi nömrələri təqdim olunub.

# Tarixi Qələbə Heydər Əliyev siyasətinin təntənəsidir

Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki Zəngilan rayon Mədəniyyət evi və Zəngilan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Tarix yazan əbədiyaşar Lider” adlı tədbir keçirilib. Ulu öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Zəngilan rayon 33 saylı tam orta məktəbin şagirdləri tərəfindən kompozisiya təqdim edilib. Sonda Ulu öndərə həsr edilmiş “Əbədiyyət” filmi nümayiş olunub.






***





Oğuz rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində “Sən, həmişə qəlbimizdəsən!” adlı sərgi keçirilib. Sərgidə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrləri özündə əks etdirən 50-dən çox foto nümayiş olunub.

***

Ağstafa rayon Heydər Əliyev Mərkəzində rayon üzrə gənclər və idman, təhsil qurumlarının dəstəyi ilə ümumtəhsil müəssisələrinin şagirdləri arasında “Heydər Əliyev və Azərbaycan tarixi” mövzusunda bilik yarışması keçirilib. Yarışda 13 məktəb iştirak edib. Poylu kənd tam orta məktəbin “Xarıbülbül” komandası I, 2 nömrəli tam orta məktəbin “Zirvə” komandası II, Dağ Kəsəmən kənd tam orta məktəbinin “Xəmsə” komandası isə III yerə layiq görülüb. Qalib komandalara diplomlar təqdim olunub.

Tovuz rayon Heydər Əliyev Mərkəzində Tovuz Peşə liseyində təhsil alan şagirdlər arasında Ulu öndərin 100 illiyi ilə əlaqədar intellektual yarış təşkil edilib. “Qələbə” komandası I, “Qarabağ” komandası II, “Şuşa fatehi” komandası isə III yeri qazanıb. Qalib komandalar diplomlarla mükafatlandırılıb.

***

Masallı Tarix-Diyarşünaslıq Muzeyi, rayon Mərkəzi Kitabxanası və Lənkəran-Astara RTİ-nin rayonu üzrə sektorunun birgə təşkilatçılığı ilə Boradigah qəsəbə 2 saylı tam orta məktəbində bilik yarışı keçirilib. 12 komandanın iştirak etdiyi yarışda qaliblər fəxri fərmanla mükafatlandırılıb.

Masallı rayon Heydər Əliyev Mərkəzində Sığıncaq kənd tam orta məktəbi şagirdlərinin iştirakı ilə “Heydər Əliyev və Azərbaycan tarixi” mövzusunda tarix dərsi keçirilib. Dahi siyasətçinin ömür yolu və dövlətçilik fəaliyyəti ilə yanaşı, Azərbaycanın mədəniyyət, iqtisadiyyat, idman sahələrində baş verən önəmli hadisələr barədə də məlumat verilib. Şagirdlər “Ümummilli lider Heydər Əliyev və Azərbaycan mədəniyyəti” başlıqlı sərgi ilə tanış olublar.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzində “Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir” adlı şeir qiraəti müsabiqəsi keçirilib. Cəlilabad rayonunda fəaliyyət göstərən ümumtəhsil məktəbləri şagirdlərinin qatıldığı müsabiqədə qaliblərə fəxri fərman və hədiyyələr təqdim olunub.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin İqriq kənd kitabxanası tərəfindən Ümummilli liderin 100 illiyi ilə əlaqədar kitab sərgisi təşkil edilib.

**Hazırladı: N.Məmmədli**

# Azərbaycan həqiqətlərini dünyaya çatdıran lider

## Qubada elmi-praktik konfrans keçirilib

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Azərbaycan Milli Elmlər Akademiyası, Quba Rayon İcra Hakimiyyəti və Soyqırımı Memorial Kompleksinin birgə təşkilatçılığı ilə noyabrın 1-də Qubada “Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Ulu öndər Heydər Əliyevin rolu” mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfrans “Heydər Əliyev İli” və Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılmasının 10 illiyinə həsr olunub.

Tədbir iştirakçıları əvvəlcə soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, kompleksin ərazisində 100-dək ağac əkiblər.

Sonra Ulu öndər Heydər Əliyevin şəhərdəki abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla anılıb.

Konfransda Soyqırımı Memorial Kompleksinin direktoru tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova, Quba Rayon İcra Hakimiyyətinin başçısının müavini Tariyel İbrahimov, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndəsi Səbuhi Bəşirov, Milli Məclisin deputatları Vahid Əhmədov, Anatoli Rafailov, Anar İsgəndərov, akademik Yaqub Mahmudov, tarix elmləri doktorları Solmaz Tohidi, Şikar Qasımov, tarix üzrə fəlsəfə doktoru Qəhrəman Ağayev məruzələrlə çıxış ediblər.

Məruzələrdə ermənilər tərəfindən yüz illər boyu Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı və deportasiya siyasətinin mahiyyəti, tarixi kökləri barədə danışılıb. Bildirilib ki, 1918-ci ilin mart-aprelində Bakıda törədilən qırğınlarda 20 minə yaxın günahsız insan, o cümlədən qocalar, uşaqlar və qadınlar qətlə yetirilib. Kütləvi qətlləri Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri həyata keçirib. Şamaxı qəzasının kəndlərində 8 mindən çox azərbaycanlı öldürülüb. Qubanın kəndlərində soyqırımı qurbanlarının sayı 16 mindən çox olub. Lənkəran, Muğan bölgəsi, Qarabağ və Naxçıvanda da yaşayış məntəqələri yandırılıb, minlərlə insan vəhşicəsinə qətlə yetirilib.



Bildirilib ki, 1998-ci il martın 26-da Prezident Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Qeyd olunub ki, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il dekabrın 30-da imzaladığı müvafiq sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. Kompleksin indiyədək 200 mini əcnəbi vətəndaş olmaqla ümumilikdə 1 milyondan çox ziyarətçisi olub.

# Zaqatalada məşhur alim soydaşımızın yubileyi qeyd olunub




Zaqatala rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə oktyabrın 31-də Əməkdar elm xadimi, Münxen Texniki Universitetinin (Almaniya) professoru, “Humboldt” mükafatı alan ilk azərbaycanlı alim Məsud Əfəndiyevin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Zaqatala filialının əməkdaşları, mədəniyyət işçiləri, kitabxanaçılar və digər qonaqlar iştirak ediblər.

Mərkəzi Kitabxananın direktor əvəzi Sevda Rəhimova Məsud Əfəndiyev haqqında məruzə ilə çıxış edib. Alimin həyat və fəaliyyətini əks etdirən slayd nümayiş etdirilib.

Daha sonra UNEC-in Zaqatala filialının dekanı Babək Alıyev, pedaqogika üzrə fəlsəfə doktoru Həşim İsmayılov və alimin sinif yoldaşı Tahir Məmmədov mövzu ətrafında çıxış ediblər.

Sonda Məsud Əfəndiyevin tədbir iştirakçılarına videomüraciəti ünvanlanıb. Müraciətdə alim doğma yurdu Zaqatalaya və tədbir iştirakçılarına salam göndərib, təşkilatçılara təşəkkürünü bildirib.

# “Sumuq qala” abidəsinə turistlər xüsusi maraq göstərir



Qax rayonundakı qədim tarixi-memarlıq abidələrindən biri də İlisu Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yerləşən ölkə əhəmiyyətli “Sumuq qala” abidəsidir. İnşa tarixi XVIII əsrə aid edilən müdafiə qülləsi sümük kimi möhkəm olduğu üçün yerli əhali tərəfindən belə adlandırılır. Yerli ləhcədə “sümük” sözü “sumuq” kimi tələffüz olunur.

Rayona gələn yerli və xarici turistlər qalaya böyük maraq göstərirlər. Bu ilin 10 ayı ərzində qalanı 4 mindən çox turist ziyarət edib. 2022-ci ildə bu göstərici 3050 nəfər olmuşdu.

İlisu Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Azər Qocayev bildirib ki, ərazidə mühafizəyə götürülən 51 tarixi-memarlıq və mədəniyyət abidəsi var. Onlardan 13-ü dövlət qeydiyyatına alınıb. Digər 38 abidənin də qeydiyyata alınması ilə bağlı müvafiq qurumlara müraciət olunub.

“Sumuq qala”da yerli əhalidən könüllü şəkildə toplanmış qədim əşyalar və sənətkarlıq nümunələri əsasında muzey də yaradılıb. Eksponatlar içərisində ötən əsrin 80-ci illərində qalada çəkilmiş “Qorxma, mən səninləyəm!” bədii filminə aid fotolar da gələnlərin marağına səbəb olur.

# “Gəncəsənət” – payız çalarları”

## Sərgi-yarmarka çərçivəsində sənətkarlarla görüş keçirilib

Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə noyabrın 1-də “Gəncəsənət – payız çalarları” sərgi-yarmarkası çərçivəsində sənətkarların və aidiyyəti qurumların iştirakı ilə görüş keçirilib.

Görüşdə RMİ-nin rəisi vəzifəsini icra edən Pərvin Kazımov, “KOB Dostu” departamentinin Gəncə-Qazax regional koordinatorluğunun əməkdaşı Anar Əliyev, Gəncə Regional Turizm İdarəsinin rəisi Zaur Bayramov, “Cavad xan” Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov, Gəncə İctimai İştirakçılıq Məclisinin üzvü, “Gəncəsənət” layihəsinin koordinatoru Gülnar Məmmədova və başqaları iştirak ediblər.

Çıxışlarda sənətkarlığın daha da inkişaf etdirilməsi, yeni istedadlı gənclərin üzə çıxarılması ilə bağlı təkliflər səsləndirilib. Sənətkarların müzakirə olunan məsələlərə dair rəy və təklifləri dinlənilib.

Sonda “Gəncəsənət” sərgi-yarmarkasının hər ay keçirilməsi, habelə əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, 2021-ci ildən həyata keçirilən “Gəncəsənət” layihəsinin məqsədi sakinlər arasında sənətkarlıq və incəsənətə marağın artırılması,



sənət növlərinin yaşadılması və inkişafı, alıcı və sənətkar arasında körpünün qurulması, eləcə də şəhərin mədəni həyatına rəng qatmaqdır.

# Teatrın inkişafında birgə layihə və təcrübə mübadiləsi önəm kəsb edir

## TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının toplantısı Şuşada keçirildi



Xəbər verdiyimiz kimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, peşəkar milli teatrımızın yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə 31 oktyabr – 4 noyabr tarixlərində Şuşada və Bakıda I Beynəlxalq TÜRKSOY Teatr Festivalı keçirilir.

Festival çərçivəsində oktyabrın 31-də Şuşada TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının 9-cu toplantısı gerçəkləşdi.

Toplantıda TÜRKSOY-a üzv ölkələr Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Türkmənistan, eləcə də təşkilatın müşahidəçi üzvləri Şimali Kipr Türk Cümhuriyyəti və Qaqauz Yerindən (Moldova) dövlət teatrlarının rəhbərləri iştirak edirdi.

Toplantı iştirakçıları əvvəlcə bu il "Türk dünyasının mədəniyyət paytaxt" missiyasını yerinə yetirən qala-şəhərimiz Şuşanın gözməli-görməli yerləri, tarixi-mədəni abidələri ilə tanış oldular.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov iştirakçıları salamladı və TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının 9-cu toplantısının Şuşada keçirilməsinin əhəmiyyətini vurğuladı. Müşavir qardaş türk respublikalarında teatr sahəsinin inkişafı baxımından toplantını yüksək qiymətləndirdi, tədbirin işinə uğurlar arzuladı.

Sonra TÜRKSOY-un 30 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirildi.

Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı qonaqları növbəti dəfə Şuşada salamlamaqdan məmnunluğunu ifadə etdi. Təşkilat tərəfindən 2023-cü il üçün Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsinin əhəmiyyətindən söz açan E.Qafarlı il ərzində Şuşada silsilə tədbirlər keçirdiklərini diqqətə çatdırdı. Dedi ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən beynəlxalq teatr festivalı türk xalqlarının səhnə sənətinin, dilinin, adət-ənənələrinin təbliğinə böyük töhfə olacaq.

TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının sədri Əməkdar incəsənət xadimi, professor İsrafil İsrafilov 150 yaşlı Azərbaycan milli peşəkar teatrının inkişaf yolundan danışdı. Teatrşünas türk xalqlarının sənət əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd etdi, dram əsərlərinin qarşılıqlı mübadiləsinin əhəmiyyətini vurğuladı.

J.Şanin adına Çimkənd Qazax Akademik Dram Teatrının rejissoru Sultan Srailov çıxışında birgə layihələrin əhəmiyyətindən danışdı. O, həmçinin türk xalqlarının dramaturgiyasının ümumi bazasının yaradılması ilə bağlı təklifini dilə gətirdi.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev bu gün ölkəmizin teatr mühitində baş verən yeniliklərdən danışdı. O, TÜRKSOY-un teatr sahəsində həyata keçirdiyi layihələr, Azərbaycan teatrının 150 illik fəaliyyəti, türk respublikaları teatrlarının işbirliyi, qardaş xalqlarımızın müəlliflərinin yaradıcılıq nümunələrinin repertuara daxil edilməsi, rejissor və səhnə rəssamlarının qarşılıqlı mübadiləsi və s. məsələlərlə bağlı fikirlərini bölüşdü.

Türkiyəli yazıçı-dramaturq Mustafa Bal toplantının əhəmiyyətini qeyd etdi, qarşıda duran vəzifələrin uğurla həyata keçiriləcəyinə əminliyini bildirdi.

İssıkgöl Musiqili Dram Teatrının (Qırğızıstan) rejissoru Sveta Abdıkadırova təmsil etdiyi teatrın tarixi və fəaliyyəti, TÜRKSOY tərəfindən təşkil edilən layihələrdə iştirakı ilə bağlı söz açdı.

Qırğızıstandan daha bir nümayəndə – Dövlət Akademik Milli Dram Teatrının direktoru Nazim Mendevayrov isə teatr sahəsinin ümumi problemləri, müasir səhnə prosesləri və Türk dünyası teatrlarının inkişaf məsələlərinə toxundu.

Xarəzm Musiqili Dram Teatrının (Özbəkistan) direktoru Dinarahan İbrahimova ölkəsində təşkil edilən teatr festivalları və digər tədbirlərdə türk teatrlarının iştirakı ilə bağlı danışdı.

Şimali Kipr Türk Cümhuriyyəti Dövlət Teatrlarının müdiri Hakan Elmasoğlu şuranın iclasında ilk dəfə iştirakından məmnunluğunu ifadə etdi. O, Şimali Kipr teatrlarının fəaliyyəti, tamaşaçıların teatra cəlb olunması və digər məsələlərdən söz açdı.

Qaqauz Yeri (Moldova) teatrının müdiri Mixail Konstantinov teatrın 1999-cu ildə fəaliyyətə başladığını diqqətə çatdırdı, yaradıcılıq məsələlərinə toxundu. O, kollektivin iki dildə – rus və qaqauz dillərində tamaşalar nümayiş etdirdiyini də söylədi.

Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının direktoru Murad Aradov qardaş ölkələr arasında sənət mübadiləsi, qarşılıqlı səfərlər və ustad dərslərinin təşkilinin əhəmiyyətini vurğuladı.

Çıxışlar dinlənildikdən sonra TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının 9-cu toplantısının birgə bəyannaməsi imzalandı.

Bəyannamədə türk xalqlarının teatr sahəsində əməkdaşlığının genişləndirilməsi, bu istiqamətdə təcrübə mübadiləsi və digər məsələlər əksini tapıb.

Şuranın 10-cu toplantısının TÜRKSOY tərəfindən 2024-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Türkmənistanın Anev şəhərində keçiriləcəyi diqqətə çatdırıldı.

Sonda toplantı iştirakçılarına sertifikatlar təqdim olundu.

**Lalə Azəri**

# Qələbə soraqlı festival çərçivəsində xor konserti

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Zəfər" musiqi və teatr festivalı davam edir. 8 Noyabr – Zəfər Günü münasibətilə təşkil olunan festivalın tədbirləri paytaxt Bakı ilə yanaşı, Gəncə və Sumqayıt şəhərlərində, İsmayıllı, Biləsuvar, Sabirabad, Xaçmaz rayonlarının mədəniyyət ocaqlarında keçirilir.

Festival çərçivəsində oktyabrın 27-də Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalında Dövlət Xor Kapellasının (bədii rəhbər və baş dirijor Xalq artisti Gülbacı İmanova) konserti olub.

Konsertdə Nərmin Rzayeva və Elxan Niftiyevin fortepianoda müşayiəti ilə Azərbaycan Dövlət Xor Kapellası və solistlər – Əməkdar artistlər Tural Ağasıyev, Anton Ferştandt, beynəlxalq müsabiqələr laureatları Nigar İsmayılova, Nəsibə Bədəlbəyli, Adil Baxışlı, Safura Aslanova və İntiqam Allahverdiyev öz ifalarını musiqisevərlərə təqdim ediblər.



Proqramda Üzeyir Hacıbəylinin "Ey Vətən", "Milli marş", Fikrət Əmirovun "Azərbaycan elləri", Qara Qarayevin "Bayrağımızdır", Tofiq Quliyevin "Azərbaycan", Aqşin Əlizadənin "Ana torpaq", Elza İbrahimovanın "Ey Vətən", Vasif Adıgözəlovun "Bakı", Müslüm Maqomayevin "Azərbaycan", Cavanşir Quliyevin "Zirvə", Elnarə Dadaşovanın "Alqış qeyrətinə" və digər əsərlər səsləndirilib.

Qeyd edək ki, 22 oktyabrda başlanan festival noyabrın 8-də yekunlaşacaq.

# Bülbülün Memorial Muzeyində konsert

Bülbülün Memorial Muzeyində Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyası ilə birgə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert keçirilib.



Oktyabrın 31-də təşkil olunan tədbiri giriş sözü ilə açan muzeyin direktoru Fərqanə Cabbarova Ulu öndərin dahi Bülbülün yaradıcılığına göstərdiyi diqqət və qayğıdan danışıb. Heydər Əliyevin bununla bağlı müxtəlif vaxtlarda etdiyi çıxışlardan videofraqmentlər nümayiş olunub.

Konsertdə İncəsənət Gimnaziyası şagirdlərinin ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənib. Şagirdlərə fəxri fərmanlar təqdim edilib.

# "Yeni adlar"ın növbəti musiqi axşamı

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan "Yeni adlar" layihəsi davam edir. Layihəsi çərçivəsində növbəti konsert proqramı oktyabrın 27-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təqdim olunub.



Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor Mustafa Mehmandarov) müşayiəti ilə gənc istedadlar – respublika və beynəlxalq müsabiqələr laureatları Nərgiz Əliyeva (piano) və Əbdüləli Hüseynli (piano) çıxış ediblər.

Solistlər dinləyicilərə R.Şumanın "Piano və orkestr üçün konsert" (a-moll, op.54) və F.Listin "Ölülər rəqsi", op.40 əsərini təqdim ediblər.



Qeyd edək ki, "Yeni adlar" müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin tanınmasına, parlaq ifaçıların yetişməsinə xidmət edən layihədir.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (75)

### 1997-ci il 7 noyabr

Prezident Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə görkəmli bəstəkar, Xalq artisti Tofiq Quliyevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb.

Xalq artisti Tofiq Quliyevə 80 illik yubileyi münasibətilə təbrik məktubu göndərib.

***

Azərbaycan Dövlət Milli Dram Teatrında Xalq şairi Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya?!" pyesinin tamaşasına (rejissor Bəhram Osmanov) baxandan sonra yaradıcı kollektivin üzvləri ilə görüşüb.

*"...Bəxtiyar Vahabzadənin hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir. Bəxtiyar Vahabzadə adətən şeirlər, poemalar yazır, ancaq bir neçə səhnə əsəri də yaradıbdır. Mən bu tamaşanı çox böyük maraqla, həvəslə izlədim.*

*Bilirsiniz, adətən tamaşaya gəlirlər ki, əsərdə bir münaqişə olsun, yaxud da oynamaq, çalmaq – şənlik olsun. Bəlkə də belə bir əsər hər bir tamaşaçının diqqətini cəlb edə bilməz. Belə bir əsərin öz tamaşaçısı lazımdır. Ancaq eyni zamanda, hesab edirəm ki, hər bir insan bu tamaşaya diqqətlə baxdıqca onların hamısında böyük maraq oyanacaq. Çünki bu tamaşa həyatı əks etdirir. Bəxtiyar müəllim belə bir əsər yazmaqla insan yaranandan indiyədək adamların arasında, onların həyatında gedən psixoloji prosesi əks etdirmək istəyib. Hesab edirəm ki, o, buna nail olubdur.*

*...Əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır. İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar...*

*Yenə də deyirəm, bu əsər adi tamaşaçı üçün çox çətin qavranılan bir əsərdir. Amma həm rejissorun, həm sizin hamınızın birlikdə ifaçılıq sənətiniz insanı doğrudan da gərginlikdə saxlayır... Hamınızı təbrik edirəm və təşəkkür edirəm ki, bizə bu gün yeni bir tamaşa təqdim etdiniz...".*

### 1997-ci il 10 noyabr

Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında fərman imzalayıb. Fərmana əsasən, qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ömürlük verilməklə 30 fərdi təqaüd təyin olunub.

### 1997-ci il 17 noyabr

Bakıda işə başlayan Vokalçıların Bülbül adına 1-ci Beynəlxalq Müsabiqəsinin iştirakçılarına təbrik məktubu ünvanlayıb.

### 1997-ci il 19 noyabr

Respublika Sarayında bəstəkar Tofiq Quliyevin 80 illik yubiley gecəsində çıxış edib.

*"...Azərbaycan xalqı bəşəriyyətə çox görkəmli insanlar bəxş etmişdir. Əziz Tofiq, onların sırasında sənin xüsusi layiqli yerin var. Əziz qardaşım, 80 yaşın tamam olarkən fəxr edə bilərsən ki, sən şərəfli bir ömür yaşamısan... Sənin yaratdığın əsərlərə, xalqımıza bəxş etdiyin gözəl mahnılara, musiqinə, Azərbaycanın ictimai həyatında dərin fəal iştirak etdiyinə görə sənə təşəkkür edirik. Bu mərasim sənin üçün bəlkə də azdır. Sən bundan da böyük şöhrətə və hörmətə layiqsən.*

*Azərbaycan xalqı 60 ildir ki, sənin mahnılarının təsiri altında yaşayır... Musiqinin hər bir sahəsi həmişə insanlar tərəfindən sevilibdir. Ancaq mahnı, şərqi insanlara daha yaxın olub. Yəni əgər opera musiqisini, simfonik musiqini bir çox adamlar qəbul edir, ancaq o hamıya çatmırsa, amma mahnı və xüsusən sənin kimi bəstəkarın mahnıları hamıya təsir edir. Ona görə də mahnı daim yaşayır... Biz hamımız bu dünyadan gedəcəyik. Ancaq mahnı, musiqi yaşayacaq. Tofiq Quliyevin mahnıları, musiqisi daim yaşayacaqdır...".*

### 1997-ci il 20 noyabr

Amerikada nəşr edilən "Azerbaijan İnternational" jurnalının beşilliyi münasibətilə M.F.Axundov adına Respublika Dövlət Kitabxanasında keçirilən mərasimdə nitq söyləyib.

*"...Bu jurnalın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, bizim çoxlarımızın həyatımızda olan, bəzən görmədiyimiz gözəl hadisələri gedir, tapır, çıxarır, öz səhifələrində göstərir. Bu da çox maraqlıdır... Bu jurnal həm Üzeyir Hacıbəyovu, Rəşid Behbudovu, Niyazini, həm bizim böyük şairlərimizi, rəssamlarımızı təbliğ edir, həm də bu gün meydana gələn gənc istedadlarımızı təbliğ edir...*

*Jurnalın gördüyü gözəl işlərdən biri də Azərbaycan musiqisinin kompakt disklərə yazılması və dünyaya yayılmasıdır. Xanım Betti Bleyer bu barədə geniş məlumat verdi. Bu bizim üçün çox faydalı bir işdir, şəxsən mənə də kömək ediblər. Məni ziyarət edən qonaqlara "Azərbaycan internəşnl" jurnalını və Azərbaycan bəstəkarlarının musiqi əsərlərindən ibarət kompakt diskləri hədiyyə verirəm...".*

### 1997-ci il 22 noyabr

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Xalq yazıçısı Hüseyn Abbaszadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. 75 illik yubileyi münasibətilə yazıçı Hüseyn Abbaszadəyə təbrik məktubu göndərib.

### 1997-ci il 24 noyabr

Azərbaycan yazıçılarına dövlət qayğısının artırılması haqqında fərman imzalayıb. Fərmanla Yazıçılar Birliyinin "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnıy Azərbaycan" jurnalları və "Ədəbiyyat" qəzetinin nəşri dövlət büdcəsinə salınıb. Həmçinin istedadlı gənc yazıçılar üçün aylıq 10 fərdi təqaüd təyin olunub.

Azərbaycan aşıq sənətinin böyük ustadı Aşıq Ələsgərin 175 illik yubileyi haqqında sərəncam imzalayıb.

***

Opera və Balet Teatrında Xalq artisti, görkəmli vokalçı Şövkət Məmmədovanın 100 illiyinə həsr olunmuş mərasimdən sonra səhnə arxasında incəsənət ustaları ilə söhbət edib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Tiflis Azərbaycan teatrının qurucularından:
## Mirzəli Abbasov

150 yaşlı Azərbaycan peşəkar teatrı zəngin tarixə və ənənələrə malikdir. Milli səhnə sənətimizin mühüm bir qolu da XIX əsrin sonlarında Tiflis şəhərində təşəkkül tapıb və böyük inkişaf yolu keçib. Bu sənət tarixini Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrı davam etdirir. Yeri gəlmişkən, bu günlərdə Azərbaycanın və Gürcüstanın baş nazirlərinin iştirakı ilə teatrın yeni binasının təməli qoyulub.

Bu yazıda Tiflis Azərbaycan teatrının görkəmli simalarından biri – aktyor, rejissor və dramaturq Mirzəli Abbasovu yada salacağıq.

Mirzəli Hacabbas oğlu Abbasov 1874-cü ildə Tiflisdə dünyaya göz açıb. Erkən çağlardan teatra maraq göstərir. Bu maraq onu şəhərdəki Müsəlman Teatr Cəmiyyətinə gətirir. Görkəmli azərbaycanlı aktyor, Gürcüstanın Xalq artisti İbrahim İsfahanlı xatirələrində yazır ki, cəmiyyətin hazırladığı tamaşalar ilk vaxtlarda məktəb binasında və kiçik klublarda göstərilirdi. Mirzəli Abbasov isə bu cəmiyyətə bir qədər sonra – 1898-ci ildə gəlir. Qısa vaxt ərzində istedadlı bir gənc kimi kollektivin sevimlisinə çevrilir. Cəmiyyətin rəhbərlərindən biri olan M.Abbasov daha sonra bacarıqlı aktyor və rejissor kimi tanınıb.

Professor Abbas Hacıyev "Tiflis Azərbaycan teatrı" adlı araşdırmasında M.Abbasovun aktyor və rejissorluq fəaliyyəti ilə bağlı yazır: "O, teatrda "Otello", "Nadir şah", "Ölülər", "Qaçaqlar", "Şeyx Sənan", "Dağılan tifaq", "O olmasın, bu olsun", "Arşın mal alan", "Hacı Qara", "Müfəttiş" və s. səhnə əsərlərinə quruluş verib. Eyni zamanda bu tamaşalarda aktyor kimi də rol alıb, özünəməxsus ifası ilə tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Filologiya elmləri doktoru mərhum Adilxan Bayramov da Tiflis Azərbaycan teatrı ilə bağlı yazılarında M.Abbasovun həyat və yaradıcılığına yer verib. Alim diqqətə çatdırır ki, M.Abbasov Tiflis Azərbaycan teatrında yeni aktyor nəslinin yetişməsi üçün çox səy göstərir, istedadlı gəncləri teatra cəlb etmək üçün onlarla mütəmadi görüşlər keçirir. Sonrakı illərdə M.Abbasovun aktyorluq sənətindən bəhrələnən bir çox gənc müxtəlif teatrların aparıcı aktyorları olur. İbrahim İsfahanlı, Mirseyfəddin Kirmanşahlı, Əli Qurbanov, Möhsün Sənani, Əhməd Salahlı, Ələkbər Seyfi və bir çox başqaları onun sənətindən bəhrələniblər.


Tiflis Azərbaycan teatrının truppası. 1927-ci il

Araşdırmalarda o da qeyd edilir ki, Nəriman Nərimanov Tiflisdə olarkən müəllifi olduğu "Nadir şah" pyesinin tamaşasına dəfələrlə baxıb. Hər dəfə Nadir şah rolunun mahir ifaçısı M.Abbasova öz minnətdarlığını bildirib.

M.Abbasov 1914-cü ildə türk dramaturqu Əli Heydər Əmirin "Səd ibn Vəqqas" əsərini tamaşaya qoyur. Tamaşada görkəmli aktyor Hüseyn Ərəblinski də rol alır. Tiflisdə yaşayan tənqidçi, ədəbiyyatşünas, tərcüməçi Əziz Şərif tamaşa haqqında yazıb: "İran şahının rolunu böyük istedad sahibi olan Mirzəli Abbasov oynayırdı. Oynadığı rol onun xasiyyətinə tam uyğun idi və başqa bir artistin bu mürəkkəb rolu daha yaxşı oynaya biləcəyini təsəvvürə gətirmək çox çətindir".

M.Abbasov istedadlı aktyor olaraq Hüseyn Ərəblinski, Mustafa Mərdanov, İbrahim İsfahanlı kimi sənət xadimləri ilə eyni tamaşalarda rol alıb. Tiflis teatr truppasının tərkibində dəfələrlə Türkiyə, İran, Özbəkistan və Türkmənistanda qastrol səfərlərində olub.

M.Abbasov qızı Diləfruzu da aktrisa kimi görmək istəyir. O, ilk dəfə Tiflis Azərbaycan teatrında səhnəyə çıxır və qısa vaxt ərzində istedadlı aktrisa kimi tanınır. 1923-1924-cü illərdə Tiflis Azərbaycan teatrının bədii rəhbəri olmuş görkəmli rejissor Aleksandr Tuqanov xatirələrində yazır: "İndiki kimi yadımdadır, "Oqtay Eloğlu"nun qoyuluşu yeni türk aktrisasının meydana gəlməsi ilə eyni vaxta düşürdü: artist Mirzəli Abbasov doğma qızı Diləfruzun taleyini səhnə ilə bağlamaq istəyirdi. Diləfruz Oqtayın bacısı rolunu oynayırdı və Oqtayın onu səhnəyə gətirmək istəməsi həyəcanla, gurultulu alqışlarla qarşılandı".

Tamaşa ilk dəfə Rustaveli teatrında göstərilir. Sevər rolunda səhnəyə çıxan Diləfruz Abbasovanın çıxışı alqışlarla qarşılanır. Ona gül-çiçək dəstələri təqdim olunur. Maraqlıdır ki, Diləfruzun bu uğurlu çıxışından sonra Tiflis Azərbaycan teatrına azərbaycanlı qızların yolu açılır. Onlardan taleyini birdəfəlik teatra bağlayanlar da olur.

1921-ci il Tiflis Azərbaycan teatrı üçün uğurlu olur. Teatr "dövlət" statusu alır. Bu işdə Mirzəxan Quliyev, Mustafa Mərdanov, Mirseyfəddin Kirmanşahlı, İbrahim İsfahanlı ilə yanaşı, M.Abbasovun da xidmətləri vardı.

1924-cü ildə tanınmış sənətkarın Rustaveli teatrında səhnə fəaliyyətinin 25 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilir. Gecədə təbriklərdən sonra Hüseyn Cavidin "İblis" tamaşası göstərilir. Aktyor tamaşada İxtiyar rolunda səhnəyə çıxır. Elə həmin il onun səmərəli səhnə fəaliyyəti hökumət tərəfindən yüksək qiymətləndirilir, "Gürcüstanın Əməkdar artisti" fəxri adına layiq görülür.

Görkəmli rejissor, aktyor, teatr təşkilatçısı və dramaturq Mirzəli Abbasov 3 noyabr 1943-cü ildə, 69 yaşında Tiflisdə vəfat edib, şəhərin müsəlman qəbiristanlığında dəfn olunub.

**Savalan Fərəcov**

# Arxeoloji ekspedisiyalar ən çox 60 gün davam edəcək



Elmi ekspedisiyaların təşkili və aparılması qaydalarında dəyişiklik edilib. Baş nazir Əli Əsədov bununla bağlı Nazirlər Kabinetinin müvafiq qərarını imzalayıb.

Qərara əsasən, elmi ekspedisiyaların təşkili və aparılması Qaydalarında bir sıra normalar dəyişdirilib, o cümlədən ekspedisiyaların xüsusiyyətləri nəzərə alınaraq, arxeoloji ekspedisiyaların fəaliyyət müddəti artırılaraq ən çox 60 gün, bu ekspedisiyalara mülki-hüquqi müqavilə əsasında cəlb edilən şəxslərin sayı artırılaraq 10 nəfərdən çox olmamaqla müəyyən edilib. Eyni zamanda bəzi kateqoriya üzrə işçilərin əməyinin ödənilməsi, nəqliyyat vasitələrinin, bina və mənzillərin icarə haqqının, nəqliyyat vasitəsi üçün yanacaq və sürtkü materialları xərclərinin normaları artırılıb.

# "Qarabağın Çörək muzeyi" filminin təqdimatı

Noyabrın 1-də Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının qərargahında "Qarabağın Çörək muzeyi" filminin təqdimatı olub.

Ağdamdakı Çörək muzeyinin tarixindən bəhs edən film "Azərbaycan Milli Kulinariyasının Araşdırılması, Təbliğ və Dünyaya İnteqrasiyası" İctimai Birliyinin QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirdiyi layihə əsasında hazırlanıb.

Filmin ssenari müəllifi Firuzə Nadir bildirib ki, 3 minə yaxın nadir eksponatın toplandığı Ağdam Çörək Muzeyi dövlət tərəfindən yerli mədəniyyət abidəsi kimi qorunub: "Çörək muzeyi





ağdamlılar üçün quruca daş-divar deyildi, unikal mədəniyyət abidəsi idi. Çörəyin yaranması, bişirilməsi, ərsəyə gətirilməsi tarixini öyrənən dəyərli bir məkəz idi. Ağdamlılar bu muzeyi elə xəmir kimi yoğurub yapmış, düz-çörəyə abidə qoymuşdular. Çörəyi dizinin üstündə olan ermənilər isə bu müqəddəsliyə də əl uzadıblar. Artıq doğma torpaqlarımız, mədəniyyətimiz əsarətdən qurtarılıb. Düşünürəm ki, bu film muzeyin bərpasında da müəyyən rol oynayacaq".

Sonra film nümayiş etdirilib.

Filmdə muzeyin yaradılması və fəaliyyətində xidməti olanlar iştirak ediblər. Onlar muzeyin tarixi ilə bağlı məlumatları bölüşüblər.

Təqdimat mərasimində Ağdam Rayon Mədəniyyət Şöbəsinin keçmiş müdiri Çimnaz Əliyeva, sonuncu direktoru Hafiz Əliyev və digər çıxış edənlər filmin mədəniyyətimizin təbliği baxımından əhəmiyyətini vurğulayıblar.

# Braziliya diplomatı ADU-da "Səfir saatı"nda



Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz oktyabrın 30-da Azərbaycan Dillər Universitetinin (ADU) "Səfir saatı" layihəsinin qonağı olub.

Rektor Kamal Abdulla qonağa təhsil ocağı barədə məlumat verib. Qeyd edib ki, ADU tələbələri portuqal dilinə də böyük maraq göstərirlər. Portuqal dilinin öyrənilməsi Braziliya mədəniyyətinin, ədəbiyyatının, tarixinin təbliği deməkdir: "Biz çox istərdik ki, Braziliyada da Azərbaycan mədəniyyəti, dili təbliğ olunsun. Bunun üçün bizim əlaqə qurduğumuz universitetdə Azərbaycan dili ilə bağlı təbliğat işlərinin görülməsi vacib məsələlərdən biridir. Qarşılıqlı müəllim-tələbə mübadiləsi bizə yeni elmi imkanların əldə olunması üçün əlverişli şərait yaradacaq. İnanıram ki, bu istiqamətdə də uğurlu nəticələr əldə edə biləcəyik".

Səmimi qarşılanmaya görə təşəkkürünü bildirən səfir ADU ilə elmi əməkdaşlığın perspektivlərindən danışıb. Təhsil ocağında portuqal dilinin tədrisini yüksək qiymətləndirən diplomat "Səfir saatı" layihəsində tələbələrlə görüşdən xoş təəssüratla ayrıldığını deyib.

Görüşdə gələcək elmi əməkdaşlığın yeni imkanları, mədəni tərəfdaşlığın yeni perspektivləri müzakirə olunub.

# Hərə bir eksponat versə...
## "İçərişəhərim" adlı sərgi təşkil edilib





Şirvanşahlar Sarayı Kompleksində "İçərişəhər" Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə "İçərişəhərim" adlı sərginin açılışı olub.

Layihənin əsas məqsədi İçərişəhər sakinlərinin tarixi əsrlərə söykənən milli dəyərlərini yaşatmaq və tanıtmaqdır.

Sərgidə nümayiş edilən 100-dən artıq eksponatlardan ən qədimi XVIII, ən müasiri isə XX əsrin ortalarına aiddir. Onların arasında qədim musiqi alətləri, analarımızın sevgi ilə yaratdıqları və qız-gəlinlərə cehiz olaraq verilən nəfis aksesuarlar, dini əşyalar, sənədlər və fotolar var. Hər bir əşya özündə böyük bir tarixi dövrləri yaşadaraq, qədim Bakının etnoqrafik lövhələrini, bədii sənətkarlıq dünyasını, ailə-məişət ənənəsini əks etdirir.

"İçərişəhərim" sərgisi noyabrın 30-dək Şirvanşahlar Sarayı Kompleksində ziyarətçilər üçün açıq olacaq.

# Mədəni mühitin inkişafı üçün yorulmadan çalışmaq



Onun mənalı ömür yoluna nəzər saldıqda bütün fəaliyyətində cəmiyyət üçün faydalı, hər zaman yenilikçi və fədakar əməyinə şahid olursan. Biləsuvar rayonunun mədəni mühitindən söhbət düşəndə daha çox xatırlananlar arasında Zülfüqar Əliyev də var.

Zülfüqar Nadir oğlu Əliyev 1950-ci il martın 24-də Biləsuvarın Təzəkənd kəndində dünyaya göz açıb. Yeniyetmə yaşlarından incəsənətə, musiqiyə böyük həvəs göstərən Zülfüqar tar ixtisası üzrə təhsil alıb. Sonra Bakı Mədəni-Maarif Texnikumunda təhsilini davam etdirib. Eyni zamanda Biləsuvar rayon Mədəniyyət evində kitabxanaçı kimi əmək fəaliyyətinə başlayıb.

1969-1971-ci illərdə hərbi xidmət keçən Z.Əliyev qayıtdıqdan sonra bir müddət əvvəlki işində çalışıb. Ancaq o, sevdiyi sahədə ali təhsil almaq istəyirdi. Beləliklə, yenidən Bakıya üzü tutur. Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) mədəni-maarif işçisi, özfəaliyyət teatr kollektivi rəhbəri ixtisasına qəbul olunur. Sonradan Azərbaycan incəsənətinin tanınmış simaları kimi şöhrət qazanan Xalq artistləri Rasim Balayev, Telman Adıgözəlov, Ramiz Novruzov, Kübra Əliyeva və başqa istedadlı gənclərlə eyni auditoriyanı, səhnəni, film meydançasını bölüşür.

Ömrünün düz 44 ilini mədəniyyətə, incəsənətə həsr edən şair qəlbli Z.Əliyev rayonda bu sahədə ilk ali təhsil alanlardan olub. Onun xüsusi bacarığı, səriştəsi gənc ikən yüksək qiymətləndirilir. 1971-ci ildə, 21 yaşında Biləsuvar rayon Mədəniyyət evinə (indiki Mədəniyyət mərkəzi) rəhbər təyin edilir. Bundan sonra rayonun mədəni mühitində canlanma yaranır. O, incəsənət sahəsində təhsilli gənclərin azlığını görüb bu istiqamətdə əməli addımlar atır. İstedadlı gəncləri arayıb üzə çıxarır, onlara stimul verir. Keçirilən mədəni-kütləvi tədbirlərin səviyyəsinin yüksəlməsinə nail olur.

Z.Əliyevin öz peşəsinə sonsuz sevgisi həm də gəncləri bu sahəyə yönəldir, təhsil almağa həvəsləndirirdi. Məhz bu dövrdə incəsənətə xüsusi marağı ilə seçilən gənclərin sayının çoxalması rayon Mədəniyyət evi üçün yeni möhtəşəm binanın tikilməsinə vəsilə olur. Bundan sonra mədəniyyət ocağında daha böyük tədbirlər keçirilməyə başlanır. Ölkəmizin tanınmış incəsənət ustaları, yaradıcılıq kollektivlərinin rayonda çıxışları da intensiv xarakter alır.

Mədəniyyət mərkəzində 26 illik fəaliyyətindən sonra Zülfüqar müəllim Biləsuvar Dövlət Rəsm Qalereyasına da rəhbərlik edib. Təşkilatçılığı ilə seçilib, yeniliyə meyilli olub. Onun 1986-cı ildə təşkil etdiyi "Şəhriyar" və "Muğan" estrada ansambları bir çox televiziya proqramlarında və dövlət tədbirlərində uğurlu çıxışları ilə yadda qalıb. 1987-ci ildə rayonda ilk folklor rəqs qrupunun yaradılmasında da onun mühüm xidmətləri olub.

Z.Əliyev Biləsuvar Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondunun maraqlı eksponatlarla zənginləşməsinə də öz töhfəsini verib. Rayonun 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidləri haqqında kitabın ərsəyə gəlməsində də yaxından iştirak edib. Respublikamızda və xaricdə keçirilən bir sıra tədbirlərdə, el şənliklərində təşkilatçı və aparıcı kimi də geniş rəğbət qazanıb. O, mədəniyyət sahəsində uzunillik səmərəli fəaliyyətinə görə müxtəlif təltiflərə layiq görülüb. Özünü mədəniyyət sahəsindən ayrı təsəvvür edə bilməyən Zülfüqar müəllim təqaüdə çıxdıqdan sonra da bu sahəyə xidmətini davam etdirib.

Zülfüqar müəllim sentyabrın 13-də, ömrünün 73-cü ilində haqq dünyasına qovuşdu. Bölgədə mədəni mühitin inkişafı üçün yorulub-usanmadan çalışan səmimi, qayğıkeş insan Zülfüqar Əliyevin xatirəsi rayonun mədəniyyət ictimaiyyətinin və onu tanıyan hər kəsin qəlbində yaşayacaq.

Allah rəhmət eləsin.

**Surxay Şahbazov**

# İrəvan teatrı yeni mövsümü ATXİ-nin səhnəsində açıb

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) "Qonaq teatrlar" layihəsinin növbəti iştirakçısı İrəvan Dövlət Azərbaycan Dram Teatrı olub. Teatrın kollektivi oktyabrın 31-də ATXİ-nin səhnəsində "Nurlu ömrün anları" tamaşasını (müəllif İftixar) nümayiş etdirib.




Bu, eyni zamanda İrəvan teatrı üçün yeni mövsümün açılışı olub. 2013-cü ildən teatrın repertuarında olan səhnə əsəri Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti və dövlətçilik irsindən bəhs edir. 2020-ci ilin Vətən müharibəsindən sonra tamaşanın sonluğuna Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun qazandığı Zəfərin rəmzi ifadəsi – Azərbaycanın qalibiyyət təntənəsi əlavə edilib.

ATXİ-nin səhnəsində yeni mövsümün açılış mərasimində həmçinin "İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi" kitabının təqdimatı keçirilib. Əməkdar mədəniyyət işçisi İftixar Piriyevin müəllifi olduğu kitab QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına "İrəvan Mədəni İrsinin Təbliği" İctimai Birliyinin həyata keçirdiyi "Qərbi Azərbaycanın mədəni irsi" layihəsi əsasında çap edilib.

Kitabda Azərbaycan teatr sənətinin inkişafına mühüm töhfələr verən Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaranma tarixi, təşəkkül və inkişaf mərhələləri əksini tapıb.

# Tanınmış ifaçı Cəlal Abbasovun növbəti solo konserti

Heydər Əliyev Sarayında tanınmış ifaçı Cəlal Abbasovun növbəti solo konserti olub.

Sarayın mətbuat xidmətindən bildirilib ki, oktyabrın 29-da keçirilən konsertdə Cəlal Abbasov musiqiçilər – Əməkdar artist Tofiq Cabbarov, Nizami Əliyev, Elşən Dadaşov və DJ Kənanın müşayiəti ilə sevilən və yeni mahnılarından ibarət proqram təqdim edib.

Cəlal Abbasovun müğənnilər Validə və Vlada Axundova ilə oxuduğu duet də maraqla qarşılanıb.

Arzu Vaqifqızının aparıcılığı ilə keçən konsert musiqisevərlərin alqışları altında "Cənnətim Qarabağ" mahnısı ilə sona çatıb.

Heydər Əliyev Sarayında artıq beşinci solo konsert proqramı ilə çıxış edən Cəlal Abbasov bir sıra estrada müsabiqələri və festivalların iştirakçısı və qalibidir.



# Sənət yolunda, Vətən uğrunda...

Doğulandan bəri insan ürəyinin səsi ilə öz sevgisini axtarmağa çalışır. Bu sevgi özünü hər yerdə göstərə bilər. Yaradıcı insanların qəlbi isə bir ayrı cür döyünür. Bu döyüntü ilə o, ahəngdar şəkildə qəlbinin ona demək istədiklərini anlamağa çalışır. Qəlbindəki böyük sevgi hissinin ona göstərdiyi düzgün yol isə insanın ən böyük hədiyyəsi ola bilər. Məhz belə bir həyati hədiyyə istəklərinin dalınca əzmlə getməyi bacaran gənc bəstəkar Vüqar Məmmədzadəyə nəsib olub.



O, erkən yaşlarından musiqi sənətinə sevgi ilə böyüyüb. Ailəsində hər zaman eşitdiyi professional musiqi, ona aşılanan estetik tərbiyə gələcəkdə yetkin bir bəstəkarın meydana çıxması üçün zəmin yaradıb.

Vüqar ilk musiqi təhsilini Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən Məktəb-studiyada alıb. Daha sonra Asəf Zeynallı adına Musiqi Kollecində və Bakı Musiqi Akademiyasında (Arif Məlikovun sinfi) təhsilini bəstəkarlıq üzrə davam etdirib. Sağlam və peşəkarcasına qoyulmuş təhsil bünövrəsi artıq gələcəkdə parlaq bir istedadın ortaya çıxacağını labüd edirdi.

O, həmçinin 2020-ci ildə Almaniyada R.Şuman adına Düsseldorf Konservatoriyasında professor Oliver Şnellerin sinfinə daxil olub. Bir sıra tanınmış musiqi mütəxəssislərindən ustad dərsləri alıb.

V.Məmmədzadə 2018-ci ildə Türkiyədə "Caspi Art" beynəlxalq müsabiqəsində Qran-pri mükafatına, 2019-cu ildə Nəsiminin 650 illik yubileyi ilə əlaqədar yazdığı "Hardasan?" romansı ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təşkil olunan "Nəsimi-romans" müsabiqəsində diploma layiq görülüb.

Bəstəkarın əsərləri həm ölkəmizin bir çox musiqi salonlarında, həm də xaricdə səsləndirilib. Qəbələ və Şəki "İpək Yolu" beynəlxalq musiqi festivalları çərçivəsində keçirilən konsertlərdə, Praqada təşkil olunan "Sülhün səsi" adlı konsertdə onun əsərləri də dəfələrlə ifa edilib. Vyanada isə "Mənim yolum" adlı əsərinin premyerası uğurla gerçəkləşib. Ölkəmizin hüdudlarından kənarda belə uğurlara imza atmaq gənc bir bəstəkar üçün çox böyük addımlardır. Təsadüfi deyil ki, Vüqar "Netflix" kimi populyar dünya platforması ilə də əməkdaşlıq edən ilk Azərbaycan bəstəkarıdır. "Netflix"lə əməkdaşlıqdan sonra bəstəkar Fransanın video-oyun şirkətlərindən "Ubisof Mon Real" ilə işbirliyi quracaq.

Türkiyənin məşhur seriallarından "Diriliş Osman" layihəsinin ikinci mövsümündə bəstəkar işinin ona həvalə edilməsi də Vüqarın yaradıcılıq uğurlarından soraq verir. Sənət yolunda yorulmadan, əzmlə çalışan bəstəkar Vətən qarşısında borcunu yaradıcılığı ilə bərabər, 44 günlük müharibədə layiqincə iştirak etməklə də nümayiş etdirdi. Zəngilan uğrunda gedən döyüşlərdə yaralandı, qazi oldu. Dövlət başçısının müvafiq sərəncamları ilə Zəngilan, Qubadlı və Şuşanın azad olunmasına görə medalları ilə təltif olundu.

Şanlı Qələbəmizin birinci ildönümündə Heydər Əliyev Sarayında "Qarabağ Azərbaycandır!" adlı konsert proqramı təşkil edildi. Konsertdə səslənən üçlü simfonik orkestr üçün "Dəmir yumruq" əsəri də Vüqarın vətənə sevgisinin parlaq ifadəsidir.

Bəstəkar mütəmadi öz üzərində çalışır, sənətin yeni zirvələrini fəth etmək üçün addımlar atır. Biz bu yolda gənc musiqiçiyə yaradıcılıq uğurları arzulayırıq.

**Nuray Əliyeva**
**musiqişünas**

# Həsən bəy Zərdabi haqqında yeni kitab

Milli mətbuatımızın banisi, görkəmli maarifçi, pedaqoq, təbiətşünas-alim, ictimai xadim, mütəfəkkir Həsən bəy Zərdabi (1842-1907) haqqında yeni kitab işıq üzü görüb.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının qərarı ilə "Zərdabi dövri mətbuat səhifələrində (2015-2017)" adlı kitab çapdan çıxıb.

Yeni nəşrin tərtibçisi və ön söz müəllifi Əlyazmalar İnstitutu Şəxsi arxivlərin tədqiqi şöbəsinin böyük elmi işçisi Əzizə Ələkbərovadır.

Kitabın elmi məsləhətçisi institutun icraçı direktoru filologiya elmləri doktoru, dosent Paşa Kərimov, redaktoru isə institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfzadədir.

Kitabda Həsən bəy Zərdabi haqqında 2015-2017-ci illərdə dövri mətbuatda nəşr edilən müxtəlif səpkili materiallar yer alıb.

# Ustad aşığın şeirlər kitabı nəşr olunub

Azərbaycan Aşıqlar Birliyində ustad aşıqların yaradıcılığına daim diqqət göstərilir, onların şeir, deyişmə və dastan yaradıcılığından ibarət kitablar nəşr olunur. Bu sıradan növbəti nəşr Şirvan aşıq mühitinin ustad sənətkarı Cavid Əmiraslanovun. "Könüllər oxşayar sazı aşığın" adlı kitabıdır.

Cavid Səfəralı oğlu Əmiraslanov 1939-cu ildə İsmayıllı rayonunun Pirəqanım kəndində anadan olub. Şirvan aşıq mühitinin yetirməsi kimi məlahətli səsi və özünəməxsus ifa tərzi ilə seçilən, çoxlu dastan və rəvayətlər bilməsi ilə tanınan aşıq bədii yaradıcılıqla da məşğul olur. Kitabda onun gəraylı, qoşma, təcnis, müxəmməs və digər şeirləri ilə yanaşı, onun ayrı-ayrı aşıq və şairlərlə deyşmələrindən nümunələr toplanıb.

Aşıq Cavid eyni zamanda şəhid atasıdır – oğlu Bəxtiyar Əmiraslanov Birinci Qarabağ müharibəsində Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Kitabın redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, rəyçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədlidir.

# Sənətşünaslığın incəsənətdə əhəmiyyəti haqqında

İncəsənət öz saysız-hesabsız formaları ilə tarix boyu insan ifadəsinin və mədəniyyətinin tərkib hissəsi olaraq qalıb. Ən qədim dövrlərdəki mağara və qayaüstü rəsmlərdən müasir rəqəmsal əsərlərə qədər incəsənət cəmiyyətin əksi, fərdi ifadə vasitəsi və müxtəlif mədəniyyətlər arasında körpü rolunu oynayır. Bu kontekstdə sənətşünaslığın əhəmiyyətini vurğulamasaq olmaz. Sənətşünaslıq yaradıcılığı inkişaf etdirməkdə və mədəni kontekstlərin daha dərindən dərk olunmasında mühüm rol oynayır.



İncəsənət tədqiqatları fərdlərə öz yaradıcı instinktlərini araşdırmaq və inkişaf etdirmək üçün bir növ platforma təmin edir. Müxtəlif texnikalara, vasitələrə və üslublara nəzər salmaqla həvəskar rəssamlar öz təxəyyüllərinin sonsuz potensialını aça bilərlər. İncəsənət fərdlərin öz düşüncələrini, duyğularını və təcrübələrini çatdırmaq üçün güclü bir vasitədir. Həmçinin cəmiyyətin mədəni, sosial və siyasi dinamikasını əks etdirən güzgüdür. İncəsənət tədqiqatları da rəssamlara vizual dili inkişaf, onlara öz perspektivlərini ifadə etməyə və müxtəlif auditoriya ilə əlaqələr yaratmağa imkan verir.

Sənətşünaslıq fərdlərdə bədii hərəkətləri və üslubları formalaşdıran tarixi və mədəni kontekstləri dərk etməyə imkan yaradır. Sənətşünaslıq sadəcə özünü ifadə etməkdən kənara çıxır; texniki bacarıqların inkişafına da diqqət yetirir. İstər müəyyən bir rəsm üslubunun incəliklərini mənimsəmək, heykəltaraşlıq üsullarını təkmilləşdirmək, ya da rəqəmsal sənət alətlərini idarə etmək olsun. İncəsənət tədqiqatları nəticə etibarilə təkcə bədii bacarıqları artırmır, həm də həyatın müxtəlif aspektlərində dəyərli olan səbir, əzm və detallara diqqət kimi keyfiyyətləri inkişaf etdirir.

Sənəti təhlil etmək kəskin müşahidə hissi və tənqidi düşüncə tələb edir. İncəsənət tədqiqatları fərdləri sənət əsərlərini qiymətləndirməyə, şərh və tənqid etməyə, analitik bacarıqlarını inkişaf etdirməyə təşviq edir.

Əslində, sənətşünaslıq canlı və mədəni zəngin cəmiyyətin təməl daşıdır. Biz daim dəyişən dünyada yaradıcılıq alovunun parlaq şəkildə yanmağa davam etməsini sənətşünaslığın əhəmiyyəti kimi görürük...

**Sevinc Quliyeva**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

## Xatirə təqvimi — 4–7 noyabr

### Azərbaycan

**4 noyabr 1939** – Əməkdar mədəniyyət işçisi Limunət Nurullah qızı Abdullayeva (1939-2016) Qax rayonunun Qaxmuğal kəndində doğulub. Qax Tarix-Diyarşünaslıq Muzeyinin direktoru işləyib.

**4 noyabr 1944** – Əməkdar mədəniyyət işçisi, rejissor, animasiya filmləri rəssamı Rauf Məmmədağa oğlu Dadaşov (1944 – 9.2.2020) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında, "Azanfilm" studiyasında işləyib.

**4 noyabr 1954** – Aktyor Fərman Abdulcabbar oğlu Abdullayev (1954 – 5.3.2013) Şəkidə anadan olub. Şəki teatrında çalışıb, filmlərdə ("Həm ziyarət, həm ticarət...", "Sarı gəlin", "Yalan") çəkilib.

**4 noyabr 1967** – Əməkdar artist Ələkbər Hüseyn oğlu Hüseynzadə (3.10.1887 – 1967) vəfat edib. "Arşın mal alan" (1945) filmində Soltan bəy obrazına görə Dövlət mükafatına layiq görülüb.

**5 noyabr 1925** – Türkoloq, filologiya elmləri doktoru Elməddin Məhəmməd oğlu Əlibəyzadə (1925 – 26.3.2015) Oğuz rayonunun Muxas kəndində anadan olub. "Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi" və s. əsərlərin müəllifidir.

**5 noyabr 1938** – Ərəbşünas, filologiya elmləri doktoru, professor Malik Rüstəm oğlu Mahmudov (1938 – 3.6.1991) Ordubad şəhərində anadan olub.

**5 noyabr 1948** – Satirik şair, qəzəlxan Baba Pünhan (Atababa Seyidəli oğlu Mədətzadə; 1948 – 17.4.2004) Bakının Kürdəxanı kəndində doğulub. Kitabları: "Acı həqiqət", "Mən nə dedim ki..." və s.

**5 noyabr 2001** – Xalq artisti Eldəniz Məmməd oğlu Zeynalov (1.1.1937 – 2001) vəfat edib. Filmlərdə, teatr və televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**5 noyabr 2018** – Tanınmış musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Seyran Əmir oğlu Qafarov (2.10.1969 – 2018) vəfat edib.

**6 noyabr 1931** – Şair, nasir Tofiq Mahmud (Tofiq Mahmud oğlu Mehdiyev; 1931-1997) Naxçıvan MR Şahbuz rayonunda doğulub. Uşaq və gənclər üçün əsərlərin müəllifidir.

**6 noyabr 1974** – Şair-dramaturq, tərcüməçi İslam Əhməd oğlu Səfərli (12.2.1923 – 1974) vəfat edib. Sözlərinə populyar mahnılar bəstələnib. "Göz həkimi", "Ana ürəyi", "Yolayrıcı" və s. pyeslərin müəllifidir.

**6 noyabr 1977** – Bakıda görkəmli yazıçı-dramaturq, dövlət xadimi Nəriman Nərimanovun Xatirə Muzeyinin açılışı keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**6 noyabr 2009** – Xalq yazıçısı Qılman İlkin (Qılman İsabala oğlu Musayev; 28.4.1914 – 2009) vəfat edib. Əsərləri: "Şimal küləyi", "Dəniz qapısı" və s. "Kölgələr sürünür", "Yenilməz batalyon" filmlərinin ssenarisini yazıb.

**7 noyabr 1877** – Aktyor, vokalçı Hənifə Həsən oğlu Terequlov (Məhəmmədhənifə Tanrıqulov; 1877-1942) Tiflisdə doğulub. Hacıbəyli qardaşlarının teatr truppasının, digər teatr cəmiyyətlərinin üzvü olub.

**7 noyabr 1898** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Məmməd Əli oğlu Əlili (1898 – 13.6.1993) anadan olub. "Ögey ana", "Dağlarda döyüş" və s. filmlərin 2-ci rejissoru olub, "Dəli Kür", "Nəsimi" filmlərində çəkilib.

**7 noyabr 1905** – Teatr və kino rejissoru Şüa Nəsrulla oğlu Şeyxov (1905 – 27.1.1970) anadan olub. Gənc Tamaşaçılar, Füzuli Dram teatrlarında çalışıb. "Qəribə əhvalat", "Kölgələr sürünür" (İsmayıl Əfəndiyevlə birgə) və s. filmləri çəkib.

**7 noyabr 1908** – Şair, alim, pedaqoq Maqsud Məsim oğlu Şeyxzadə (1908 – 19.2.1967) anadan olub. Bakıda təhsil alıb, sonra Daşkəndə köçüb. Özbəkistanın tanınmış ədibi olub, özbək dilində əsərlər, ssenarilər yazıb, tərcümələr edib.

**7 noyabr 1917** – Görkəmli bəstəkar, pianoçu, Xalq artisti Tofiq Ələkbər oğlu Quliyev (1917 – 4.10.2000) Bakıda doğulub. Azərbaycan estrada musiqisinin yaradıcılarından biridir. "Bəxtiyar", "Görüş", "Ögey ana", "Onu bağışlamaq olarmı?", "Nəsimi", "Qayınana" və s. filmlərə, tamaşalara musiqi bəstələyib. Bəstəkarlar İttifaqının sədri olub.

**7 noyabr 1917** – Xalq rəssamı Tağı Əzizağa oğlu Tağıyev (1917-1993) Bakıda anadan olub. "Qara Qarayev", "Səttar Bəhlulzadə", "Səməd Vurğun", "Koroğlu", "Babək" portretlərinin müəllifidir.

**7 noyabr 1917** – Türkoloq alim, professor İren İsgəndər bəy qızı Məlikova (Melikoff; 1917 – 9.1.2009) Peterburqda doğulub. 1919-cu ildə ailəsi Fransaya köçüb. Fransada azərbaycanlı diasporunun tanınmış simalarından olub.

**7 noyabr 1920** – Azərbaycanın ilk radio diktorlarından biri, Xalq artisti Fatma Ağacabbar qızı Cabbarova (1920 – 29.11.2010) Bakıda anadan olub. 1991-ci ilədək Dövlət Teleradio Verilişləri Şirkətində işləyib.

**7 noyabr 1922** – Bakıda böyük satirik Mirzə Ələkbər Sabirin abidəsinin təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan SSR-in hökumət başçısı Nəriman Nərimanov nitq söyləyib.

**7 noyabr 1925** – Əməkdar incəsənət xadimi, teatr rəssamı Əyyub Səfər oğlu Fətəliyev (1925 - 21.4.2000) İrəvanda anadan olub. Akademik Opera və Balet Teatrında quruluşçu rəssam işləyib.

**7 noyabr 1934** – Xalq artisti, tanınmış müğənni Oqtay Ağayev (1934 – 14.11.2006) Bakıda anadan olub. Azərbaycan Dövlət Estrada Orkestrinin, Azərbaycan Televiziyası və Radiosu Estrada orkestrinin solisti olub.

**7 noyabr 1940** – Xalq artisti, xanəndə Baba Mahmudoğlu (Mirzəyev; 1940 – 6.12.2006) Qazax rayonunda doğulub. Opera tamaşalarında ("Leyli və Məcnun", "Aşıq Qərib", "Əsli və Kərəm" və s.) əsas partiyaları ifa edib.

**7 noyabr 1945** – Xalq artisti Zərnigar Fəti qızı Ağakişiyeva (1945 – 8.2.2018) Quba rayonunun Rustov kəndində anadan olub. Akademik Milli Dram Teatrında (1973-2011) çalışıb, televiziya tamaşalarında, filmlərdə ("Dantenin yubileyi", "Təhminə" və s.) maraqlı obrazlar yaradıb.

**7 noyabr 1979** – Tanınmış rejissor, aktyor Yusif Yulduz (Yusif Seyfulla oğlu Əliyev; 1905–1979) vəfat edib. Peşəkar təhsil alan ilk azərbaycanlı teatr rejissorlarındandır. Akademik Milli Dram, Opera və Balet, Gəncə, Quba və b. teatrlarda çalışıb. Filmlərdə çəkilib.

**7 noyabr 1990** – Əməkdar incəsənət xadimi, görkəmli kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (25.12.1906 – 1990) vəfat edib.

**7 noyabr 2002** – Prezident Heydər Əliyev görkəmli bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun 80 illiyi haqqında sərəncam imzalayıb.

### Dünya

**4 noyabr 1575** – İtalyan rəssamı Qvido Reni (Guido Reni; 1575-1642) anadan olub.

**4 noyabr 1923** – Alman yazıçısı Barbara Bartos-Höpner (Barbara Bartos-Höppner; 1923-2006) anadan olub. Uşaq və yeniyetmələr üçün kitabların, ssenarilərin müəllifidir.

**5 noyabr 1913** – İngilis aktrisası, "Oskar" mükafatçısı Vivyen Li (Vivien Leigh - Vivian Mary Hartley; 1913-1967) anadan olub.

**5 noyabr 1938** – Fransız (yəhudi əsilli) müğənni və bəstəkar Co Dassen (Joe Dassin – Joseph İra Dassin; 1938–1980) anadan olub.

**6 noyabr 1814** – Belçikalı musiqi aləti ustası, saksofonun yaradıcısı Adolf Saks (Antoine-Joseph (Adolphe) Sax; 1814-1894) anadan olub.

**7 noyabr 1810** – Macar bəstəkarı, pianoçu və dirijor Erkel Ferens (Erkel Ferenc; 1810-1893) anadan olub.

**7 noyabr 1913** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1957) laureatı Alber Kamyu (Albert Camus; 1913 – 4.1.1960) anadan olub. Ekzistensializm fəlsəfəsinin tanınmış nümayəndəsidir. Əsərləri: "Vəba", "Özgə", "Sizif haqqında mif", "Qiyamçı adam", "Şeytanlar" və s.

**Hazırladı: V.Orxan**



# “Uzun Həsən – Ağqoyunlu dövlətinin hökmdarı”

## Heydər Əliyev Mərkəzində açılan sərgi üç ay davam edəcək

*əvvəli səh. 1-də*

Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı Hərb Muzeyi (Harbiye Askeri Müzesi ve Kültür Sitesi Komutanlığı) kolleksiyanın Türkiyədən kənarda ilk dəfə qardaş Azərbaycanda sərgiləndiyini diqqətə çatdırıb.

Sərginin Heydər Əliyev Mərkəzi kimi möhtəşəm məkanda təşkilinin əhəmiyyətini vurğulayan səfir layihənin ərsəyə gəlməsində Yunus Əmrə İnstitutunun töhfəsini xüsusi qeyd edib, həmçinin verdiyi dəstəyə İstanbul Hərb Muzeyinə, İstanbul Topqapı Muzeyinə və Türkiyə Dövlət Arxiv İdarəsinə minnətdarlığını bildirib.

Yunus Əmrə İnstitutunun rəhbəri Şərəf Ataş Heydər Əliyev Mərkəzində olmaqdan məmnunluğunu bildirib: “Türkiyənin və Azərbaycanın tarixi keçmişində mühüm yeri olan Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənə aid sərginin açılışında iştirak etmək, Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin dediyi kimi, “Bir millət, iki dövlət” anlayışını yenidən canlandırmaq baxımından həqiqətən dəyərlidir”.

Rəhbərlik etdiyi institutun Azərbaycandakı gələcək fəaliyyətindən danışan Ş.Ataş xalqlarımızı bir araya gətirmək üçün belə fəaliyyətlərə dəstək göstərməyin vacib olduğunu qeyd edib: “İnanıram ki, bu sərgi üç ay ərzində Azərbaycanda çoxlu insanlar tərəfindən ziyarət ediləcək”.

Türkiyə Dövlət Arxivinin rəhbəri professor Uğur Ünal da sərgiyə töhfə verməkdən məmnun olduqlarını deyib: “Arxivlərin diqqətdən kənarda qalaraq yazılan bir tarix heç vaxt reallığı əks etdirməyəcək. Real tarix yazmaq ancaq arxiv qeydləri ilə mümkündür”, – deyə o əlavə edib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Sərgi “Uzun Həsən və Ağqoyunlu dövləti”, “Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti”, “Ağqoyunlu dövlətində mədəniyyət və incəsənət”, “Sara xatın – Azərbaycan tarixində ilk diplomat qadın” və digər bölmələrdən ibarətdir. Burada Uzun Həsən, onun anası, apardığı diplomatik danışıqlar nəticəsində bir çox müharibələrin qarşısını almağa müvəffəq olmuş Sara xatın, Uzun Həsənin həyat yoldaşı Despinə xatın haqqında məlumatlar yer alıb.

“Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti” bölməsində ziyarətçilərə Sultan Uzun Həsənin yürütdüyü siyasət, Ağqoyunlu dövlətini kiçik bəylikdən imperiyaya çevirməyə nail olmasından danışılır. Sərgidə Uzun Həsən, onun oğlu və davamçısı Sultan Yaqubun zirehləri, XV əsr Azərbaycan cəngavərlərinə aid silahlar da nümayiş etdirilir. Uzun Həsənin qılınc və xəncərinin XV əsr texnologiyaları ilə düzəldilmiş replikaları, həmçinin dövrün hərbi ləvazimatlarından olan oxçu üzükləri də sərgidə görmək mümkündür.



“Ağqoyunlu dövlətində mədəniyyət və incəsənət” bölməsinə yer ayrılması da təsadüfi deyil. Burada Ağqoyunlu dövlətində mədəniyyət, o cümlədən memarlıq və incəsənətin inkişafına dair məlumatlar, Topqapı Sarayı Muzeyindən miniatürlər, Türkiyənin Dövlət Arxivləri İdarəsindən Uzun Həsənin fərman və məktublarının surətləri ziyarətçilərə təqdim edilir.

Sərgidə Ağqoyunlu dövlətinə məxsus sikkələr, arxeoloji qazıntılar nəticəsində tapılan keramika nümunələri, mis əşyalar da yer alıb.






Eksponatlar arasında 1470-1480-ci illərə aid Təbriz miniatürlərinin əsasında tikilmiş Ağqoyunlu dövləti hökmdarının rəsmi geyimini də görmək mümkündür.

Sərgi üçün xüsusi olaraq üzərində XV əsrə aid nadir Təbriz miniatürünün təsvir edildiyi xalçalar, eləcə də Uzun Həsənin mum heykəli və portreti də hazırlanıb.



İnteraktiv xəritə ilə ziyarətçilərə Ağqoyunlu dövlətinin sərhədləri, onun ərazisindən keçən ticarət yolları, şəhərləri təqdim edilir. Multimedia zalında Uzun Həsənə həsr edilən film də nümayiş olunur.

Sərgidə Ağqoyunlu dövləti, Uzun Həsənə həsr olunan və digər maraqlı suvenirlər təqdim edilir. Ziyarətçilər suvenirləri sərginin davam etdiyi müddətdə əldə edə biləcəklər.

“AzerGold” şirkətinin Uzun Həsənin 600 illiyi münasibətilə hazırladığı qızıl sikkə də sərgidə nümayiş olunur və suvenir bölməsində məhdud sayda satışa çıxarılacaq.

Uzun Həsənin 600 illiyi münasibətilə “Azərpoçt” MMC tərəfindən poçt markası dövriyyəyə buraxılıb və sərginin açılışında markanın təqdimatı olub.

Sərgi çərçivəsində Heydər Əliyev Mərkəzi tərəfindən Azərbaycan və ingilis dillərində “Ağqoyunlu dövlətinin hökmdarı – Uzun Həsən” adlı kitab da hazırlanıb.

Sərgi 2024-cü il yanvarın 17-dək davam edəcək.

# İlin sözü – “süni intellekt”

## Heyranlıq da var, narahatlıq da...

2023-cü ildə ingilis dilində, eləcə də digər dillərdə ən işlək yeni kəlmələrdən birinə çevrilən “süni intellekt” İngiltərədə nəşr olunan “Collins English Dictionary” tərəfindən ilin sözü elan edilib.

Lüğətin saytında bu barədə bildirilir ki, süni intellektlə işləyən inqilabi dil modeli təbii insan nitqini təqlid etmək qabiliyyəti ilə 2022-ci ilin sonlarında ictimai şüura daxil olaraq hər kəsi heyrətə gətirib. Amma insanlar bu kəşfə heyran qalsalar da, çox keçmədən narahat olmağa başladılar. Bu narahatlıq da kompüterlərin gələcəkdə dil məsələsində “alternativ mütəxəssislərə” çevrilməsi ilə bağlıdır.

Sözün hərfi mənasına gəlincə, “Collins English Dictionary” “süni intellekt” məfhumunu “kompüter proqramlarından istifadə etməklə, insanın mental funksiyalarının modelləşdirilməsi” kimi xarakterizə edib.

2022-ci ildə “Collins English Dictionary” tərəfindən “permakrisis” (davamlı böhran) ilin sözü elan edilmişdi.

Onu da qeyd edək ki, noyabrın 1-də Böyük Britaniyada süni intellektdən təhlükəsiz istifadəyə dair ilk beynəlxalq sammit işə başlayıb. Sammitin məqsədi süni intellektlə bağlı təhlükələri müzakirə etməkdir.

# Kubada Azərbaycan muğamı səslənib

Kubada “Heydər Əliyev İli” çərçivəsində tədbirlərin davamı olaraq paytaxt Havanadakı Marti Teatrında “Qarabağ” musiqi qrupunun iştirakı ilə Azərbaycan muğamı konserti keçirilib. Bu barədə ölkəmizin Kubadakı səfirliyindən bildirilib.



UNESCO üzrə Azərbaycan Milli Komissiyası və Kubadakı səfirliyimizin birgə təşkilatçılığı, Kuba Mədəniyyət Nazirliyi və Havana Şəhər İdarəsinin dəstəyi ilə keçirilən tədbirə rəsmilər, xarici diplomatik korpusun və yerli ictimaiyyətin nümayəndələri qatılıb.

Səfir Ruslan Rzayev salamlama nitqində müasir Azərbaycan tarixinin müdrik dövlət xadimi Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Diplomat tədbir iştirakçılarına Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr – Zəfər Günü haqqında da məlumat verib. Muğamın musiqi mədəniyyətimizdə müstəsna yeri barədə danışan səfir Azərbaycanın muğam sənətinin UNESCO-nun müvafiq siyahısına daxil edildiyini bildirib.

Konsert proqramında “Qarabağ” musiqi qrupunun rəhbəri Xalq artisti Mənsum İbrahimov (xanəndə), Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artistlər Elnur Əhmədov (kamança) və Kamran Kərimovun (nağara) ifasında Azərbaycan muğamlarından parçalar, xalq mahnıları, o cümlədən Kuba musiqi nümunəsi səsləndirilib.

# Bern şəhərində qədim türk yazılarına həsr olunmuş sərgi

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu (BTMİF) və Qazaxıstanın İsveçrədəki Səfirliyinin əməkdaşlığı ilə Bern şəhərində qədim türk yazıları olan petroqlif, tamga və runik işarələrə həsr olunan sərgi açılıb. Sərgi Qazaxıstanın milli bayramına, 25 oktyabr – Respublika Gününə həsr olunub.




Sərginin açılış mərasimində Qazaxıstanın İsveçrədəki səfiri Kayrat Sarjanov və BTMİF-nin prezidenti Günay Əfəndiyeva çıxış ediblər.



Səfir Türk dünyasının ayrılmaz parçası olan Qazaxıstanın mədəni irsinin qorunması və beynəlxalq miqyasda təbliği yönündə həyata keçirilən layihələrə görə BTMİF-yə təşəkkür edib.

Günay Əfəndiyeva türk xalqlarının çoxəsrlik tarixinin və zəngin mədəniyyətinin təbliği istiqamətində təşkilatın fəaliyyət və məqsədlərindən söz açıb, sərginin fond tərəfindən başladılan layihənin bir hissəsi olduğunu bildirib.

Sərgidə qədim türk yazılarının və simvollarının daş və keramika üzərindəki bədii oymalarından ibarət müxtəlif əl işləri, türk ölkələrindən tanınmış tətbiqi sənət ustaları – Sabit Qurbanov (Azərbaycan), Sanjar Jubanov (Qazaxıstan) və Jumagul Taşiyevin (Qırğızıstan) sənətkarlıq nümunələri təqdim olunub.




## Olaylar, faktlar (4–7 noyabr)

### 364 il əvvəl...

**7 noyabr 1659-cu ildə** Fransa ilə İspaniya arasında 1635-ci ildə başlanan müharibə Pireney sülhünün imzalanması ilə nəticələnib. İspaniya sərhəd bölgələrdəki bəzi əraziləri, o cümlədən nəzarətində olan Niderlandın bir hissəsini Fransaya verdi. Əvəzində Fransa zəbt etdiyi Kataloniya ərazilərini İspaniyaya qaytardı.

### 106 il əvvəl...

**7 noyabr 1917-ci ildə** Rusiyada tarixə “Böyük Oktyabr Sosialist İnqilabı” kimi düşmüş bolşevik üsyanı qələbə çalıb. Üsyan noyabrın 6-da (köhnə təqvimlə 24 oktyabr) Petroqradda (Sankt-Peterburq) başlanmışdı. “Müvəqqəti hökumət”in yerləşdiyi “Qış sarayı”nın alınması noyabrın 7-nə keçən gecə baş verdi. “Tavriya” zalında çıxış edən Vladimir Lenin hakimiyyətin sovetlərin (bolşeviklərin) əlinə keçdiyini bəyan etdi.

### 104 il əvvəl...

**5 noyabr 1919-cu ildə** Türkiyənin Antep şəhəri Fransa qüvvələri tərəfindən işğal olunub. Bundan öncə, 1918-ci ilin dekabrında şəhər ingilislərin nəzarətinə keçmişdi. Fransız işğalı 1921-ci ilin dekabrınadək sürdü. Qurtuluş savaşında azad olunan şəhər qazilik ünvanı alaraq Qaziantep adlandırıldı.

### 97 il əvvəl...



**6 noyabr 1926-cı ildə** Azərbaycan Radiosu fəaliyyətə başlayıb. Bakıda ilk radiostansiyanın verilişlərinin gündəlik efir vaxtı 2 saat təşkil edirdi. 1956-cı il fevralın 14-də Bakı Televiziya studiyası fəaliyyətə başladı. 6 noyabr Azərbaycanda radio və televiziya işçilərinin peşə bayramı günüdür.

### 77 il əvvəl...

**4 noyabr 1946-cı ildə** BMT-nin təhsil, elm və mədəniyyət üzrə təşkilatı olan UNESCO-nun (United Nations Educational, Scientific and Cultural Organization) Nizamnaməsi qüvvəyə minib. UNESCO BMT-nin ən böyük xüsusiləşmiş qurumudur. Mənzil-qərargahı Parisdə yerləşir.

### 74 il əvvəl...

**7 noyabr 1949-cu ildə** Abşeron yarımadasının 40 km cənub-şərqində, Xəzərin Azərbaycan sektorundakı “Qara daşlar” adlanan yerdə ilk neft quyusu fontan vurub. “Qara daşlar”ın fəthi 1947-ci ildə məşhur neftçi-geoloq, “Azneftkəşfiyyat”ın rəisi Sabit Orucovun rəhbərliyi ilə başlanmış, 1948-ci ilin noyabrında ilk neft desantı ərazidə məskən salmışdı. Sonralar bu yerdə dəniz şəhəri – polad dirəklər üzərində Neft Daşları salındı.

### 56 il əvvəl...




**6 noyabr 1967-ci ildə** Bakı metrosu fəaliyyətə başlayıb. Paytaxtda 5 yeraltı stansiya – “Bakı Soveti” (“İçərişəhər”) – “26 Bakı komissarı” (“Sahil”) – “28 Aprel” (“28 May”) – “Gənclik” – “Nərimanov” xətti istifadəyə verilib. 6 noyabr Bakı metropoliteni işçilərinin peşə bayramı günüdür.

### 44 il əvvəl...

**4 noyabr 1979-cu ildə** İranda “İslam inqilabı qvardiyası”nın üzvləri ABŞ-nin Tehrandakı Səfirliyinə hücum edərək 53 amerikalını girov götürüblər. Onların tələbi ABŞ-də sığınacaq tapmış şah Məhəmməd Rza Pəhləvinin təhvil verilməsi idi. Vaşinqton bundan imtina etdi. Girovların azad edilməsi ilə bağlı danışıqlar bir ildən çox sürdü. 1980-ci ilin aprelində onların bir qismi azad edildi. Sonuncu girovlar 1981-ci il yanvarın 20-də, ABŞ-nin yeni prezidenti Ronald Reyqanın inauqurasiya günü azad edildi.

### 28 il əvvəl...

**4 noyabr 1995-ci ildə** İsrailin Baş naziri İshak Rabin iştirak etdiyi mitinqdə israilli gənc İqal Amir tərəfindən qətlə yetirilib. Terrorçu bu addımı İ.Rabinin Fələstin lideri Yasir Ərəfatla sülh razılaşması (1994-cü ildə) imzalanmasına etiraz olaraq atdığını demişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2901
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641